

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 27 (24.462)
19 iyul 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Naxçıvanda doğulan əbədi günəş

## Taleyin ümidinə buraxılan Naxçıvanın xilaskarı



### Ulu Öndər Heydər ƏLİYEV:

***“1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş.”***

*1990-cı il 22 iyul. ...Həmin gün böyükdən-kiçiyə hamı Naxçıvan Hava Limanına tələsirdi. Kimisi öz şəxsi avtomobilinə, kimisi isə sürücüsü olduğu avtobusa insanları toplayıb Naxçıvan şəhərinə yola düşürdü. Havanın temperaturunun $40^0$C keçməsinə baxmayaraq, piyada gedənlər də var idi...*

*Şərurdan Ordubada kimi hər kəs Onu qarşılamaq üçün yollarda, meydanlarda toplaşmışdı. Müəllimin, memarın, mühəndisin, kəndlinin də gözlərində ümid və sevinc yaranmışdı həmin gün. Çünki naxçıvanlılar öz övladını yaxşı tanıyırdı. Bilirdik ki, o bizə Tanrının lütfüdür. Bu torpağın əliqabarlı sakinləri çox yaxşı bələd idi Heydər Əliyevin gücünə, Vətən sevgisinə. Həmin əliqabarlı sakinlər qapısındakı son quzusunu Vətən oğlunun ayağının dəydiyi torpaqda qurban kəsəndə, düşmən hücumunda evi dağılan sədərəklilər xarabaya dönən evlərinin uçqunu altından çıxardıqları salamat qalan tək əşya olan xalçalarını Heydər Əliyevin keçdiyi yola sərdi. Məhz həmin gün naxçıvanlılar qucaq açıb Vətən oğlunu bağrına basdı. Bu həmin günlər idi ki, aylardır, Sədərəkdə döyüşlər gedir, insanlar həm düşmənlə, həm də aclıqla mübarizə aparırdı. Gecə-gündüz qəlbimizdəki Vətən sevgisinin işığında torpağı qoruyur, bir addım belə geri çəkilmirdik. Belə çətin bir vaxtda, 1990-cı il iyulun 22-də Ulu Öndərin Naxçıvana qayıtması Azərbaycan xalqının taleyinə yazılan ən böyük xoşbəxtliklərdən biri oldu, həmin gün bizim qəlbimizdə doğulan Heydər Əliyev günəşinin şəfəqləri aləmə işıq saldı. Bəli, 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iki gün sonra isə Naxçıvana gələn Ulu Öndər Heydər Əliyev xalqın əsl xilaskarına çevrildi. Tariximizlə tanış olan hər kəs yaxşı bilir ki, respublikamızın taleyüklü məsələlərlə bağlı bütün məqamlarında Ümummilli Lider daim xalqın yanında olub. Azərbaycanda ilk dəfə 1969-1982-ci illərdə hakimiyyətdə olan Ulu Öndər öz xalqını zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin iqtisadi, siyasi və mədəni tərəqqisinə nail olub, geniş vüsət alan inkişaf proseslərinə təkan verib.*

Səhifə ⇨ 2

# Naxçıvanda doğulan əbədi günəş

## *Taleyin ümidinə buraxılan Naxçıvanın xilaskarı*



(əvvəli 1-ci səhifədə)

Ömrü boyu Azərbaycan xalqının rifahı naminə çalışıb və hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, bacarığı, qabiliyyəti, fitri istedadını bu xalqın rifahı yolunda fəda edib. 1990-cı illərdə Naxçıvanda yaşayan hər bir sakin yaxşı dərk edirdi ki, əzablı və məşəqqətli günlərini yaşayan Naxçıvanı düçar olduğu ağır bəlalardan hifz etməkdən ötrü Tanrı dahi və müdrik insanı öz doğma yurduna xilaskar kimi göndərib.

### Naxçıvan Vətən oğlunu sevinclə qarşılayanda Bakıda nələr baş verirdi?

Naxçıvan Ulu Öndəri bağrına basanda Ona Bakıda yaşamağa imkan verməyən "siyasətçilərin" sayəsində cərəyan edən proseslər Azərbaycanı uçurumun bir addımlığına gətirib çıxarmışdı. Ölkədə idarəçiliyin itirilməsi, yaşayış səviyyəsinin getdikcə pisləşməsi, Ermənistanın hərbi təcavüzü və siyasi hərc-mərclik xalqımızın sabaha olan ümidlərinin tükənməsinə səbəb olmuşdu. Ölkədən təcrid olunmuş, blokada şəraitində yaşayan Naxçıvan isə taleyin ümidinə buraxılmışdı. Naxçıvana gəldikdən qısa müddət sonra – 1990-cı il sentyabrın 30-da parlament seçkilərində Naxçıvan sakinləri Ümummilli Lider Heydər Əliyevin namizədliyini yekdilliklə irəli sürdü. Ümummilli Lider Nehrəm seçki dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli seçki dairəsindən isə Naxçıvan parlamentinə deputat seçildi.

Beləliklə, 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası deputatların təkidi ilə dahi şəxsiyyət Heydər Əliyevin Sədrliyi altında öz işinə başladı. Sessiyada gündəliyə çıxarılan məsələlər və qəbul edilən tarixi qərarlar, ümumilikdə, Azərbaycanın müstəqilliyinə və suverenliyinə hesablanmışdı.

Azərbaycan Prezidenti İlham Əliyev o dövrdə Naxçıvanda baş verən hadisələr barədə deyib: ***"Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi".***

Ulu Öndərin rəhbərliyi ilə o illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edildi.

Sovetlər birliyinin yadından çıxmış, unudulmuş Naxçıvanda sovetlərin əcəl zəngi çalındı. Məhz Ulu Öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi. Üçrəngli bayraq qədim yurdda Vətən oğlu Heydər Əliyevin əllərində göylərə ucalıb Azərbaycanın başı üzərində dalğalandı.

Xalqa, Vətənə sədaqətlə xidmətin, qırılmaz tellərlə bağlılığın məntiqi nəticəsi olaraq 1991-ci il sentyabrın 3-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ulu Öndər Heydər Əliyev Ali Məclisin Sədri seçildi. Bununla da Azərbaycan tarixində Ümummilli Liderin adı ilə bağlı olan daha bir səhifə açıldı. Sessiyadakı ilk çıxışında Ulu Öndər öz taleyini xalqa tapşırdığını bildirərək deyib: ***"Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ...Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

### Bugünkü müzəffər Ordunun təməli həmin illərdə atıldı

Ali Məclisin Sədri kimi yorulmaq bilmədən çalışan Ümummilli Lider Heydər Əliyev, ilk növbədə, düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın müdafiə qabiliyyətini gücləndirdi. 1991-ci il sentyabrın 7-də Ali Məclis "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında" Qərar qəbul etdi. Onun televiziya ilə sakinlərə müraciəti naxçıvanlıları birliyə səsləməsi səngərdə döyüşən əsgəri də, özü ac yatıb çörəyini səngərdəki əsgərə göndərən qadınlarımızı da gücləndirdi, gələcəyə ümidini artırdı.

Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərə hərə öz köməyini göstərdi. Məğrur, qeyrətli Azərbaycan qadını gündüzlər çörək bişirib, gecələr çıraq işığında səhərə kimi yun corab toxuyub soyuq səngərlərdə dayanan Vətən oğullarına göndərdi. Və biz bir olub torpağımızı qoruduq. Naxçıvanı qorumaqla qalmayıb müasir, müstəqil Azərbaycanın təməlini burada atdıq.

Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla isə Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanması təmin olunub, əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və Ulu Öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada milli ordu yaradılıb, Naxçıvanın müdafiə potensialı gücləndirilib, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası Naxçıvanda qoyulub.

### Bir ideya ətrafında birləşən azərbaycanlılar

Ümummilli Lider Heydər Əliyev Ali Məclisin Sədri işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləmişdir. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Bu qərara əsasən 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunmuşdur.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atılmış, Ulu Öndər 1992-ci ildə qonşu İran İslam Respublikasına və Türkiyə Cümhuriyyətinə səfərlər edib, bu zaman keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanıb. İmzalanan protokollara əsasən hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulub, Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verilib, Sədərək və Culfa gömrük-keçid məntəqələri fəaliyyətə başlayıb. 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının Naxçıvanda konsulluqları açılıb.

### Biz torpağı qorumağı da, əkib-becərməyi də yaxşı bacarırıq

Muxtar respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də Ümummilli Liderin diqqət mərkəzində olub. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilib, böhranlı illərin gələcək inkişafa ünvanlanmış bu islahatları aqrar bölmədə irəliləyişlərə gətirib çıxarıb. Bu qərarların qəbul edilməsi hazırkı dövrdə muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən olan kənd təsərrüfatının inkişafını şərtləndirən ilk mühüm amil olub. Beləliklə, Azərbaycanda torpaq islahatı ilk dəfə Naxçıvanda aparılıb.

### Gələcəyin partiyasının əsası Naxçıvanda qoyulub

Ölkəmizin ən nüfuzlu, qüdrətli və mütəşəkkil siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının yaradılması da böyük şəxsiyyətin siyasi fəaliyyətinin Naxçıvan dövrünə təsadüf edir. 1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən gələn 550-dən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilib.

Ümummilli Lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən, eyni zamanda Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olub, Ali Sovetin sessiyalarında iştirak edib. Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı çıxışında Ulu Öndər Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan edib, dağılmaqda olan sovet ittifaqında, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək cəmiyyəti dərindən düşündürən problemlər barədə mühüm ideyalar irəli sürüb, prinsipial və konkret fikirlər söyləyib, təkliflər verib, siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları barədə qətiyyətli mövqeyini bəyan edib.

### Qurtuluşa gedən yol Naxçıvandan başladı

Həmin dövrdə ölkəyə rəhbərlik edənlərin diletantlığı üzündən qardaş qanı tökülməsinin qarşısı alındı.

1993-cü ilin yayında qardaş qanı tökülüb, vətəndaş müharibəsinə rəvac verilib, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirilib. Belə bir zamanda xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ulu Öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət edib. Xalqın davamlı çağırışlarını nəzərə alan görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı Vətənin xilası, xalqın qurtuluşu naminə atılmış addım idi.

Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də ali hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə möhtəşəm hadisə kimi daxil olub. Həmin gün Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi həkk olunub.

Dahi siyasətçi qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiyanı aradan qaldırıb, qanunun aliliyi təmin olunub, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edilib, müasir idarəçilik sistemi yaradılıb, vətəndaş həmrəyliyi bərpa olunub, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırılıb. Ötən illər bir daha təsdiq etdi ki, Azərbaycanın nicatı və tərəqqisi məhz Ulu Öndər Heydər Əliyev ideyalarında, Heydər Əliyev yolundadır.

### Özü qədər inandı

Bəli, Onun əsasını qoyduğu siyasi xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Arzuları həqiqətə çevrildi. Bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü dövləti, onun ayrılmaz hissəsi olan Naxçıvan isə Turana qapıdır. Azərbaycan artıq təkcə regionun lideri yox, dünyada söz sahibinə çevrilib.

Bu gün bizi 22 iyul 1990-cı ildən 35 illik bir zaman kəsiyi ayırır. Xalqımıza bu gözəl günləri bəxş edən, ***"Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır"***, – deyən Vətən oğlu Heydər Əliyev, 35 il öncə Onu qarşılamaq üçün yollarda gözləyən, "Heydər Əliyev gəldi artıq bizə heç kim güc gələ bilməz", – deyən anaların, nişanlısı şəhid olduğu üçün onun son yadigarı olan nişan üzüyünü silah alınması üçün müdafiə fonduna bağışlayan gülüzlü gəlinlərin, Azərbaycanın ən çətin günündə "Heydər baba, xalqı bu bəladan qurtar", – deyib çağırış edən insanların bir çoxu bu dünyada olmasa da, Turana qapı olan məğrur duruşlu Naxçıvana, Şuşada dalğalanan üçrəngli, ay-ulduzlu bayrağa baxan, yurduna qayıdan xocalılının, ağdamlının sevincini görən, sorağı dünyanın ən nüfuzlu təhsil ocaqlarından gələn gəncləri izləyən ürəyi vətən sevdalı hər bir azərbaycanlı dahi rəhbəri və Onun ətrafında birləşib yumruq olan vətənpərvər insanlarını qürurla anır. Bəli, həmin illərdə Naxçıvanda Ulu Öndərin ətrafında birləşən xalqın düyünləyib göyə qaldırdığı yumruq dəmirə dönüb Vətən savaşında düşmənin başına çırpılıb onu darmadağın etdi. Biz Onun arzuladığı kimi Şuşaya getdik, Kəlbəcərin sərin bulaqlarından su içdik, Ağdamda muğam dinləyib, Xocalıya ədalət gətirdik.

35 il öncə Naxçıvanda təməli atılan müasir Azərbaycan inkişaf etdi, bir oldu, bütöv oldu, müstəqil, azad oldu. Bu xalq müzəffər oldu, qalib oldu.

✍ Ramiyə ƏKBƏROVA



# Azərbaycan-Türkmənistan:

## qardaşlıq, mehriban qonşuluq və strateji tərəfdaşlıq

Azərbaycanın xarici siyasətində türk kökənli Mərkəzi Asiya ölkələri ilə hərtərəfli münasibətlərin inkişafı hər zaman prioritet məqsədlərdən, başlıca hədəflərdən hesab olunub. Bölgədə sülhə, sabitliyə və faydalı əməkdaşlığa xidmət edən həmin münasibətlər xalqların dostluğu, dərin mədəni bağları üzərində bərqərar olunduğundan möhkəmliyi, faydası ilə daha çox ön plana çıxır. Bu baxımdan Azərbaycan-Türkmənistan əlaqələri də regionun geosiyasi mənzərəsinin, iqtisadi, mədəni sferasının formalaşmasında müstəsna əhəmiyyətə malikdir. İyulun 16-da Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun ölkəmizə səfəri, səfər çərçivəsində keçirilən görüşlər münasibətlərin dərinləşməsinə yeni təkan olacaq. Prezident İlham Əliyev təkbətək görüş zamanı əlaqələrin xalqların dərin qardaşlıq ənənələrinə əsaslandığını və müstəqillik illərində daha da inkişaf etdiyini vurğuladı. Sitat: ***"Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da gücləndi. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. Bizim aramızdakı tarixi əlaqələr bugünkü əlaqələr üçün əsas zəmindir və əminəm ki, sizin səfəriniz bizim münasibətlərimizə yeni təkan verəcək".***

Azərbaycanı digər türk dövlətləri kimi Türkmənistanla bağlayan tellər uzaq və yaxın tarixi keçmişə, yaşanan ortaq taleyə dayanır, zəngin təcrübəyə, "Dost dar gündə tanınar" tandeminə əsaslanır. Sovetlər dönəmində ittifaq respublikaları olaraq iqtisadi, mədəni əlaqələr quran bu iki respublika 1990-cı illərin əvvəllərində – müstəqillik qazandıqdan sonra münasibətləri yeni mərhələyə uğurla daşıya bilиblər. Azərbaycan-Türkmənistan diplomatik münasibətləri 1992-ci il iyunun 9-da bərqərar olunub. 1999-cu ilin iyununda Türkmənistanın Bakıda, üç il sonra – 2002-ci ilin oktyabrında isə Azərbaycanın bu ölkədə səfirliyi fəaliyyətə başlayıb. 2007-ci ildə yaradılan birgə hökumətlərarası komissiya əlaqələrin vahid nəzarət mexanizmi əsasında, strukturlaşdırılmış şəkildə idarə olunmasını təmin edir. Məhz aparılan məqsədyönlü fəaliyyətin nəticəsidir ki, komissiyanın yaradılmasından on il sonra, daha dəqiq desək, 2017-ci il avqustun 8-də Bakıda "Azərbaycan Respublikası ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə" imzalanıb. Bununla da qardaşlıq, mehriban qonşuluq münasibətləri daha üst mərhələyə – strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Azərbaycanın 44 günlük tarixi zəfərindən sonra bölgədə yaratdığı yeni reallıqlar fonunda Türkiyə, Özbəkistan və Qazaxıstanla yanaşı, Türkmənistanla əlaqələrində də yeni səhifə açılıb. Ölkə liderlərinin qarşılıqlı səfərləri siyasi, iqtisadi yaxınlaşma və işgüzar mühit formalaşdırmaq üçün əsaslı zəmin rolunu oynayıb.

Azərbaycan-Türkmənistan əlaqələrinin inkişafı baxımından üç istiqamət vacib rol oynayır: ikitərəfli, üçtərəfli və beynəlxalq təşkilatlar vasitəsilə əlaqələr. Üçtərəfli dedikdə Azərbaycan, Türkiyə və Türkmənistan tərəfdaşlığı nəzərdə tutulur ki, bu mənada, 2022-ci il dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistan Dövlət Başçılarının Birinci Zirvə görüşü həmin tərəfdaşlığa dair yeni səhifə açıb. Görüşün ardından imzalanan sənədlər ticari-iqtisadi, elm, təhsil, mədəniyyət, energetika və gömrük sahələrinə dair üçtərəfli əməkdaşlığı gücləndirməyi qarşıya məqsəd qoyub, gələcək birgə fəaliyyət üçün vahid hədəflər müəyyənləşdirib. Görüşdə çıxışı zamanı Prezident İlham Əliyev üçtərəfli formatı yüksək qiymətləndirib: ***"Azərbaycan, Türkiyə və Türkmənistan bir-biri ilə etnik, dini-mədəni köklər və ortaq mənəvi dəyərlər ilə sıx bağlıdır. Biz haqlı olaraq xalqlarımızın zəngin tarixi-mədəni irsi və bəşər sivilizasiyasına verdiyi böyük töhfələri ilə qürur duyuruq. Azərbaycanın həm Türkiyə, həm də Türkmənistanla siyasi əlaqələri yüksək səviyyədədir".***






Azərbaycanla Türkmənistan Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətlərinin formalaşmasına əhəmiyyətli təsir göstərir, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın yeni istiqamətlərini ortaya çıxarır. Tarixi bağlar üzərində qurulmuş münasibətlər ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. Bu baxımdan, nəqliyyat-logistika istiqaməti və ölkələrin bu yöndə həm coğrafi, həm də siyasi mövqeyi xüsusi əhəmiyyət daşıyır.

Təqdirəlayiq haldır ki, Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlığının da, böyük mənada, sirayət etdiyi, təsir göstərdiyi nəqliyyat, yükdaşımaları sahəsində artıq müəyyən ciddi nəticələr də əldə olunmaqdadır. Bu ilin iyun ayında Çinin Çjetsyan əyalətindən ilk yük qatarının Orta Dəhliz vasitəsilə Türkmənistan üzərindən Azərbaycana yola düşməsi də belə deməyə əsas verir. Çjetsyan əyalətinin Çin-Avropa marşrutu üzrə dəmir yolu ilə yükdaşımaları çərçivəsində yaratdığı sayca 26-cı beynəlxalq logistika istiqaməti hesab olunan bu yol gələcəkdə ölkələrarası nəqliyyat daşımalarının artmasına güclü təkan verəcək. Yeni marşrutun istifadəyə verilməsi, eyni zamanda ənənəvi Aktau-Bakı logistika xəttinin yükünü azaldacaq, həmçinin Çin məhsullarının Mərkəzi Asiya və Şərqi Avropa bazarlarına çatdırılmasını xeyli sürətləndirəcək. Gələcəkdə Zəngəzur dəhlizinin açılması isə, ümumilikdə, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunu (Orta Dəhliz), təqribən, 350 kilometr qısaldacaq ki, bu da marşrutun rəqabət, ümumi buraxılış qabiliyyətini artıracaq. Zəngəzur dəhlizi Türk dünyasının birliyinə xidmət nümunəsi kimi, Azərbaycanın Türkiyə, Türkmənistan və digər türkdilli ölkələrlə əlaqələrini daha da gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini xeyli artıracaq.

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun səfər çərçivəsində iyulun 17-də Füzuliyə, Şuşaya gəlişi, işğaldan azad olunmuş ərazilərdə erməni vandallığı, eləcə də görülən bərpa-quruculuq işləri ilə tanışlığı, Azərbaycan Prezidenti tərəfindən Qurbanqulu Berdiməhəmmədova "Dostluq" adlı Qarabağ atının hədiyyə edilməsi iki ölkənin dostluğu, qardaşlığı və strateji tərəfdaşlığına dair dünyaya ünvanlanan mühüm mesajlardan oldu. Şuşada tarixi abidələri, mədəniyyət ocaqlarını ziyarət isə xalqlarımız arasında mədəni əlaqələrin sarsılmazlığının, mənən yaxınlığın əyani təcəssümünə çevrildi. Əminliklə demək olar ki, əvvəlki görüşlərin davamı kimi, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun budəfəki səfəri, səfər müddətində baş tutan müxtəlifsəviyyəli dialoqlar, tanışlıqlar da ikitərəfli faydalı əməkdaşlığa yeni töhfələr verəcək.

**Nail ƏSGƏROV**

# Səlahiyyətli nümayəndə Ordubad rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb



İyulun 15-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ordubad rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Səlahiyyətli nümayəndə Ordubadın muxtar respublikanın hər zaman sayılıb-seçilən bölgələrindən olduğunu diqqətə çatdıraraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Bu qədim diyar zəngin tarixi və mədəniyyəti ilə yanaşı, yetirdiyi dünyaşöhrətli şəxsiyyətləri ilə də tanınır.

Fuad Nəcəfli vurğulayıb ki, bu gün Ordubad həm də qədim və özünəməxsus ənənələrinin vəhdətində müasir inkişafının yeni mərhələsinə qədəm qoyur. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda digər bölgələrimiz kimi, Ordubadın da sosial-iqtisadi inkişafı üçün bir çox iri layihələrin icrası nəzərdə tutulub. Bu məqsədlə Ordubad şəhərinin yeni Baş planı hazırlanır. Dövlət Proqramına uyğun olaraq rayonda geniş infrastruktur quruculuğu işləri həyata keçiriləcək, rayonun sosial-iqtisadi inkişafı sürətləndiriləcək, əhalinin maddi rifah halı daha da yüksələcək.

Görüşdə iştirak edən sakinlərin problem və təklifləri dinlənilib, rayon ərazisindəki çoxsaylı tarixi-memarlıq abidələrinin qorunub saxlanılması, ətraf mühitin mühafizəsi məsələləri geniş müzakirə olunub.

# Nazirlər Kabinetində 2025-ci ilin altı ayının nəticələrinə dair müşavirə keçirilib



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində Naxçıvan Muxtar Respublikası Baş nazirinin sədrliyi ilə 2025-ci ilin ilk altı ayı ərzində görülən işlərin yekunları və qarşıdakı dövr üçün nəzərdə tutulan fəaliyyət planlarının müzakirəsinə həsr olunmuş müşavirə keçirilmişdir.

Müşavirəni giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov qeyd etmişdir ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyası muxtar respublikada da genişmiqyaslı islahatlarla müşayiət olunur. İqtisadiyyatın şaxələndirilməsi, infrastruktur layihələrinin genişləndirilməsi, yerli sənaye və kənd təsərrüfatının inkişafı, eləcə də sosial sahələrdə həyata keçirilən yeniliklər regionun dayanıqlı inkişafına əhəmiyyətli töhfə verməkdədir.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Hüseyn Bağırovun, maliyyə naziri Həsən İsmayılovun, iqtisadiyyat naziri Kazım Hüseynəliyevin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri Sahir Rüstəmovun və "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini, sədr vəzifəsini müvəqqəti icra edən Rövşən Sadıxovun 2025-ci ilin I yarımili ilə bağlı məruzələri dinlənilmişdir.

Görülən işlərin nəticələrini təhlil edən Naxçıvan Muxtar Respublikasının Baş naziri iqtisadi sabitliyin və sosial inkişafın təmin olunmasında əldə edilmiş göstəricilərin qorunub saxlanılması və daha da yaxşılaşdırılması məqsədilə qarşıdakı dövr üçün konkret hədəflərin müəyyənləşdirildiyini qeyd etmişdir. O, xüsusilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icra vəziyyətini, əldə olunmuş nəticələrin və növbəti dövr üçün zəruri addımların atılmasının nəzarətdə saxlanılmasını, eyni zamanda büdcə intizamına ciddi riayət olunmasının və infrastruktur layihələrinin vaxtında və keyfiyyətlə icra edilməsinin vacibliyini vurğulamışdır.

Müşavirədə aidiyyəti dövlət orqanlarına fəaliyyətin nəticəyönümlü təşkili və qarşıya qoyulan vəzifələrin icrasında operativliyin təmin olunması ilə bağlı göstərişlər verilmişdir.

# Naxçıvanda Türkiyənin Demokratiya və Milli Birlik Günü qeyd edilib





Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunda 15 iyul – Türkiyənin Demokratiya və Milli Birlik Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının dövlət və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə əvvəlcə qardaş ölkədə 2016-cı il iyulun 15-də baş verən dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı qəhrəmancasına şəhid olanların və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra iki qardaş ölkənin Dövlət himnləri səsləndirilib, şəhidlərin ruhuna dualar oxunub.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya çıxış edərək bildirib ki, bu gün Türkiyə demokratik qələbəsinin doqquzuncu ildönümünü qeyd edir. Əliyalın insanlar tankların, silahlı qiyamçıların qarşısına çıxaraq dövlətin, qanuni hakimiyyətin müdafiəsini təmin edib, demokratiyaya sadiqliyini göstərib. Bu zaman 251 şəhid verən Türkiyə Respublikasının dövlətçilik tarixinə qəhrəmanlıq salnaməsi kimi yazılan həmin gün cəsur insanlar öz həyatları bahasına da olsa, qiyamçıların hakimiyyəti ələ keçirməsinə imkan verməyiblər.

Vurğulanıb ki, 15 iyul gecəsi qardaş Azərbaycan öz dəstəyini yüksək şəkildə nümayiş etdirib, bu xəyanəti qınayıb və Türkiyənin yanında olub. Bu gün Türkiyə və Azərbaycan bütün sahələrdə birgə əməkdaşlıq, birlik və qardaşlıq nümayiş etdirir.

Naxçıvan Dövlət Universitetinin prorektoru Nicat Yaqubov iki qardaş ölkənin müxtəlif illərdə eyni tale yaşadığını, lakin xalqlarımızın mətanəti sayəsində dövlət çevrilişi cəhdlərinin qarşısının qətiyyətlə alındığını deyib.

Qeyd edilib ki, demokratik, suveren, müstəqil ölkələrimiz bütün sahələr üzrə inkişaf edir. Möhkəm təməllər üzərində qurulan Türkiyə-Azərbaycan münasibətləri müttəfiqlik səviyyəsinə yüksələrək hər il daha da güclənir.

Tədbirdə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda etmiş şəhidlərə həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

# Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar nazirinə yeni müavin təyin edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun 2025-ci il 11 iyul tarixdə imzaladığı Sərəncama əsasən polkovnik Ələsgərov Ələsgər Əli oğlu Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini təyin edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli polkovnik Ələsgər Ələsgərovu Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin kollektivinə təqdim edib.

Samir Seyidəhmədli yeni təyinatın Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinə müsbət töhfə verəcəyini bildirib, hazırkı mərhələdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində qarşıda duran vəzifələrə diqqət çəkib, müəyyən olunan hədəflərə çatmaq üçün görüləcək işlərdə kollektivə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, general-mayor Şahin Mirzəyev qeyd edib ki, nazirliyin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələrin ardıcıl icrasını, o cümlədən əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini uğurla yerinə yetirəcək.

Polkovnik Ələsgər Ələsgərov ona göstərilən etimada görə minnətdarlığını bildirib, üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirəcəyini diqqətə çatdırıb.

Qeyd edək ki, Ələsgər Ələsgərov yeni vəzifəyə təyin olunmazdan öncə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili Baş idarəsinin mülki müdafiə tədbirlərinin təşkili idarəsinin rəisi vəzifəsində çalışıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi olub



İyulun 14-də Naxçıvan Muxtar Respublikası prokurorunun rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatı və tabe rayon (şəhər) prokurorluqlarının əməkdaşlarının iştirakı ilə 2025-ci ilin birinci yarımili ərzində görülən işlərə dair əməliyyat müşavirəsi keçirilib.

Müşavirə iştirakçıları tərəfindən öncə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu 1 dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev müasir prokurorluq orqanlarının formalaşmasında və inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətlərindən, eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarına diqqət və qayğısından bəhs edib.

Sonra muxtar respublikada cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti, əldə olunmuş nailiyyətlər, yol verilmiş nöqsanlar müzakirə edib.

Naxçıvan Muxtar Respublikasının prokuroru 2025-ci ilin I yarımili ərzində prokurorluq və digər hüquq-mühafizə orqanlarının istintaq, təhqiqat və əməliyyat orqanları tərəfindən görülmüş işlərin vəziyyəti barədə ətraflı məruzə ilə çıxış edərək ötən ilin müvafiq dövrü ilə müqayisədə muxtar respublikada qeydə alınmış cinayət hadisələrinin sayının, əsasən, sabit qaldığını, daxili işlər, eləcə də dövlət təhlükəsizlik orqanları ilə birgə səmərəli əməkdaşlıq nəticəsində cinayətlərin açılmasının 97 faiz təşkil etdiyini qeyd edərək həm prokurorluq, həm də digər hüquq-mühafizə orqanlarında təhqiqat və istintaqın keyfiyyətinin daha da artırılması istiqamətində zəruri tədbirlərin görülməsinin vacibliyini vurğulayıb.

Həmçinin qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında müraciətlərə baxılması işinin keyfiyyətcə yeni səviyyəyə qalxması, müraciətlərə baxılması prosesi üzərində nəzarətin gücləndirilməsi, hüquqi təbliğat və profilaktiki söhbətlər nəticəsində 2024-cü ilin I yarımili ilə müqayisədə 2025-ci ilin müvafiq dövründə daxil olan müraciətlərin sayı azalıb və bundan sonra da vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması, davamlı olaraq bu sahədə profilaktiki tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılmalıdır.

Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikası prokurorunun müavini, ədliyyə müşaviri Amil Rəhimov prokurorluq və digər hüquq-mühafizə orqanlarının istintaq və təhqiqat qurumlarında cinayət işləri və araşdırma materialları üzrə səmərəliliyin və keyfiyyətin artırılması istiqamətində bütün zəruri tədbirlərin görüləcəyini bildirib.

Məruzə ətrafında çıxışlar və müzakirələrdən sonra əməliyyat müşavirəsinə yekun vuran Sənan Paşayev muxtar respublikanın prokurorluq orqanlarının bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Azərbaycan milli mətbuatı-150



# Həsən müəllimlə söhbət

Hələ süni intellektin, yaxud internetin deyil, heç radio və televiziyanın da olmadığı bir dövrdə adamların oxumaq, dünyada və məmləkətdə olub-bitənlərdən xəbərdar olmaq marağı elə bir həddə çatmışdı ki, bu zaman baş verən hər hansı siyasi hadisə, yaranan texnoloji yenilik və ya keçirilən mədəni tədbir dövrün qəzetlərini sanki cəmiyyətin orqanik bir parçası halına gətirmiş, qəzet çıxarmaq və oxumaq maarifçilik və yenilik qaynağı kimi elit bir məşğuliyyətə dönmüşdü. Belə bir dövrdə XIX əsrin ikinci yarısından başlayaraq dünyada sənaye, nəqliyyat, texnologiya və təhsil sahələrində baş verən inkişaf ozamankı Azərbaycan cəmiyyətini, onun aydınlarını da dərindən düşündürürdü. Belə bir şəraitdə 150 il əvvəl, 1875-ci ildə yaranan "Əkinçi" qəzeti hələ Azərbaycan dilində heç bir qəzetin olmadığı dövr üçün milli mətbuatın flaqmanı kimi yaranıb, özündən sonrakı anadilli nəşrlər üçün də məktəb rolunu oynadı. Bu məktəbi görə bilmək, oradakı dərsləri dinləyə bilmək üçün dövlət başçımız Prezident cənab İlham Əliyevin Sərəncamı ilə böyük təntənə ilə qeyd olunan milli mətbuatın 150 illik yubileyi ərəfəsində "Əkinçi"nin naşiri Həsən bəy Zərdabi ilə kiçik bir virtual söhbətlə gəlin keçmişə qayıdaq.

Şübhəsiz, Həsən müəllim bir ziyalı kimi XIX əsrin ikinci yarısındakı elmi-mədəni mühiti yaxşı bilən bir maarifçi baxışı ilə o dövrdə Rusiya imperiyasının tərkib hissəsi olan Azərbaycan cəmiyyətindəki problemləri, sadə insanlar arasındakı kütləvi savadsızlığı, orta əsrlərdən qalma feodal qayda-qanunlarına, mövhumata və fanatizmə meyli yaxşı görürdü. Cəmiyyətdəki təbəqələşmə, təhsilin rus dilində aparılması və bundan da yalnız varlı təbəqənin nümayəndələrinin bəhrələnməsi o dövrdəki Azərbaycanın tərəqqipərvər ziyalılarını dərindən düşündürürdü. Həsən bəy Zərdabi də bu qaranlıq mühitdən çıxış yolunu milli dilimizdəki kütləvi yazıb-oxumaqda görürdü ki, bunun da açarı ana dilimizdə nəşr olunacaq ilk qəzetdən keçirdi.

Həsən bəy Zərdabinin təsisçisi və baş redaktoru olduğu "Əkinçi" də məhz belə bir dövrdə yaranmaqla təkcə yeni əkinçilik qaydalarını kəndlilərə aşılamaq, yaxud sağlam yaşamağın yollarını öyrətmək deyil, uşaqların və xüsusən də qadınların təhsilli olmaları üçün cəmiyyətə güclü bir impuls vermək, bununla da ideoloji və mədəni inqilaba yol açmaq missiyası daşıyırdı. Bu missiya ziyalıların xalqla dialoqu kimi sonrakı illərdə daha da genişlənərək mətbu meydanda mollanəsrəddinçilər, füyuzatçılar yarandı, "Cavanlar həyatı" həyata vəsiqə qazandı. Sonrakı illərdə də xalqın içində yaşamağı bacarmış olan Azərbaycan mətbuatı bununla da Rusiyanın ucqar bir bölgəsindən Cənubi Qafqazın ən güclü iqtisadiyyatına və ordusuna sahib olan müstəqil Azərbaycanın canlı salnaməsini yaratdı. Ona görə də üzərindən keçən 150 illik bir təkamüldən sonra bu salnamənin səhifələrindəki bəzi tarixi hadisələri Həsən bəy Zərdabi ilə yenidən bölüşmək maraqlı olardı.

Milli mətbuatımızın banisi bu gün yaşasaydı, müstəqil Azərbaycan dövlətinin qazandığı qələbələr onun qəzetində baş redaktor köşəsinin əsas başlıqlarını təşkil edərdi. Həsən müəllimlə söhbət imkanımız olsaydı, şübhəsiz, 1875-ci ildən sonrakı dövr, xüsusən XX əsrin əvvəllərində Rusiya imperiyasının yıxılması, daha sonra SSRİ-nin yaranması və çöküşü, dünyanın altını üstünə çevirmiş iki dünya müharibəsi, hava nəqliyyatının yaranması, kosmosun fəthi və nüvə enerjisinin kəşfi, radio, televiziya, kompüter texnologiyasının və internetin yayılması onu çox təəccübləndirərdi. "Əkinçi"nin nəşri üçün İstanbula gedib avadanlıq gətirmək üçün kim bilir neçə gün yol getmiş Həsən müəllimə indi Bakıdan və Naxçıvandan qardaş ölkəyə uçmaq üçün cəmi 2 saat vaxt tələb olduğunu deyə bilsəydik, bu onu nə qədər xoşbəxt edərdi?

Yaxud Azərbaycan-Türkiyə-Pakistan qardaşlığını həmin 150 il əvvəlki dövrdə də yaxşı görmüş böyük maarifpərvər bu gün Azərbaycan və Türkiyə hərbçilərinin birgə təlimləri və Pakistan lideri təyyarəsinin Laçın Beynəlxalq Hava Limanına enişi haqqında xəbərləri kim bilir hansı coşqu ilə dərc etdirərdi?!

150 il əvvəl Həsən müəllim də milli məsələdə prinsipial olub, "Əkinçi"nin nəşrinə qədər Azərbaycanda və eləcə də Cənubi Qafqazda rus, gürcü və erməni dillərində çıxan qəzet və jurnalların, eləcə də Qarabağa köçürülən erməni ailələrinin sayından yaxşı xəbərdar idi. Bu faktlar haqqında indi ondan soruşmaq imkanımız olsaydı, böyük maarifçi bunu indiki bəzi tarixçilərimizdən və hələ də rus dilini "vopşe", "tak çto" və "znaçit" kimi sözlər səviyyəsində bilən Azərbaycançılıqdan uzaq bəzi akademiklərimizdən də yaxşı açıqlaya bilərdi. Ancaq ana dilini, onun gözəlliklərini, yəqin ki, o dövrdə də yaşamış rusdilli "çuşkalardan" qorumağı bacarmış Həsən müəllim indi Azərbaycanda hər yerdə dövlət dilinin öz dilimiz olduğunu bilsəydi, böyük ehtimal bunun sevinci altında dilimizi bəyənməyən dırnaqarası ziyalıların hər birinə bir qara kişi qalstuku da alıb, "skromnıy" hədiyyə edərdi.

Ancaq Həsən müəllim əzmli olduğu qədər də səbirli olduğu üçün məsləkdaşlarına və davamçılarına həmişə qələmin gücü ilə mübarizə aparmağı, azad sözün gücünə inanmağı tövsiyə edirdi. Odur ki, Həsən bəy bugünkü qəzet, televiziya, onlayn media və sosial şəbəkələr formasında yayılan mediamızı izləyə bilsəydi, bu qədər geniş imkanların yaratdığı gücü hamıdan yaxşı görə bilərdi. Və 150 il əvvəlki "Əkinçi"si ilə xalqı maarifləndirməyi düşündüyü kimi, o bu gün də işıq sürəti ilə yayılan medianın vəzifəsinin insanlara qida, su qədər vacib olan xəbəralma tələbatının ödənilməsi olduğunu heç düşünmədən deyərdi.

Alim "işıq", "ziya", "maarif" deməkdir. Uca Allah məzarını nurlu etsin Həsən bəy Zərdabinin! Onun 150 il əvvəl başlatdığı "Əkinçi"nin işığı bu gün də Azərbaycanın haqq səsini bütün dünyaya çatdırmağa və Azərbaycan reallıqlarını dünyaya əks etdirməyə çatır. Milli mətbuatımız Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsini daim yaşadıb təbliğ edən, dövlət başçımız Prezident İlham Əliyevin çıxışları səfərləri və görüşləri haqda xəbərləri kütləvi olaraq dünyaya yayan ideoloji bir ordu kimi də dövlətimizə, xalqımıza layiqincə xidmət edir. Odur ki, əgər bir möcüzə də baş verib Həsən bəyə Ordumuzun böyük Qarabağ Zəfəri, Türk və müsəlman dövlət başçılarının Xankəndi və Şuşada keçirilən zirvə görüşləri haqda xəbərlərini də verə bilsəydik, bu onu sonsuzadək rəhmətə qovuşdurardı.

Ruhun şad olsun, böyük maarifçi insan!

**Əli CABBAROV**

# "Daş oldum ki, unudulmasın söz"



Əllərim dizlərimdə oturmuşam, baxıram sizə...

Nə küçədən keçən uşaqdan gözümü çəkə bilirəm, nə də əlində qəzeti qatlayıb evinə tələsən o gənc oğlandan... Hamınıza baxıram... Amma heç nə demirəm. Çünki sözümü çoxdan demişəm.

İndi bu meydanda – Naxçıvan şəhərində yerləşən teatrın önündə daş olub durmuşam. Oturmuşam, başımı bir az əyib, susaraq düşünürəm. Elə bilirsiniz, bu sükut boşluqdur? Yox... Bu mənim ən gur səsimdir. İçimdə danışan bir xalq var – fikrə getmişəm...

Bura mənim vətənimdir. Bu torpaq, bu hava, bu sükut – hər şeyi ilə tanışam. Hələ Naxçıvanın insanı – axı bir vaxtlar o mənim qələmimin qəhrəmanı olub. Əyin-başı tozlu, amma düşüncəsi büllur kimi şəffaf olan o kəndlini mən gördüm... Bazarın ortasında danışana qulaq asdım, məclisdə susana söz verdim. Əlimdə qələm, könlüm dolu, məni doğan bu diyarda gördüyüm haqsızlığı, cəhaləti, yalanı yazıya çevirdim.

Mən yazanda söz hələ qorxuluydu, mən danışanda danışanlar az idi, qələmin ucunda təkcə mürəkkəb yox, həm də həyəcan, qorxu, sevda, ümid vardı.

Bu gün isə həmin sevdanın günüdür. Bu gün mətbuatın 150 illiyini qeyd edirsiniz. Mənə elə gəlir ki, bu 150 illik təkcə qəzetin yaşı deyil. Bu, xalqın düşüncəyə, maarifə, gerçəkliyə yolçuluğunun yaşıdır. Və bu yolçuluqda mən bir Mirzə Cəlil, daşı qələmlə oyub yazan bir yol bələdçisiyəm.

Bax, mən burada – Naxçıvanın ürəyində oturub sizə baxıram. Deyirsiniz ki, niyə elə əyilmişəm, niyə başımı aşağı salmışam? Mən öz millətimin dərdini daşıdım. Mən susanların səsini yazdım. İndi başımı aşağı salmışam ki, o günləri unutmayım. O günlər ki söz üçün mübarizə aparırdıq. Qəzet çıxarmaq körpü salmaqdan, su çəkməkdən çətin idi. Amma o söz – o doğru söz ki bir xalqı oyadacaq qədər güclü idi.

Baxın bir vaxtların "Cavanlar həyatı", "Füqəra səsi" bu gün "Şərq qapısı" olaraq yaşayır. Mən də sizə buradan səslənirəm.

Yazırsınız, danışırsınız, araşdırırsınız... Və bu məni sevindirir. Amma bir şeyi unutmayın: söz yalnız yazı deyil – söz məsuliyyətdir. Qəzet yalnız kağız deyil – qəzet vətəndaşın gözüdür, ürəyidir. Onun dərdini yazmayanda o dərdə şərik olmamış olursan.

Naxçıvan sözə doğmalıq verən yerdir. Bu torpaqda adamlar sözə inanıblar – bəzən bir misra ilə barışıblar, bəzən bir cümlə ilə dəyişiblər özlərini. Mənim "Molla Nəsrəddin"im də bu torpağın övladının nəfəsini daşıyırdı – tikanlı, amma şəfalı bir dildə. Gülə-gülə qamçılayırdıq cəhaləti. Jurnalistlər, yazıçılar, maarifçilər – hamınız bir növ Molla Nəsrəddinsiniz. Susmayın. Qorxmayın. Gülə-gülə həqiqəti deyin!

Mən daşam, danışa bilmirəm. Amma siz hələ insansınız, yazın!

Mətbuat xalqın güzgüsüdür. O güzgüdə hər kəs görünməlidir. Söz o zaman ədalətli olur.

Bəzən baxıram, mənim adımı çəkirlər, amma yazdıqlarımı oxumurlar. Mənim heykəlimlə şəkil çəkdirirlər, amma fikir verdiyim dərdlərə göz yumurlar.

Unutmayın, mənim heykəlimə baxmaqla iş bitmir – mənim ruhum sizin cümlənizdə yaşamalıdır.

150 illik mətbuat tarixində sətirlərlə dolu həyat yaşayır bu xalq. Bəzən qara hərflərlə, bəzən qırmızı başlıqlarla, bəzən susqun redaktor yazısı ilə...

Amma nə olur-olsun, bu söz yolu davam etməlidir. Və mən də oturub baxacam – əlim çənəmdə, başım aşağı, qəlbim xalqa tərəf...

Məni oxuyun, məni yazın, məni yaşayın. Çünki mən daş yox, söz olmuşam... Və söz ölmür...

**Rafiq TƏHMƏZ**



# Azərbaycan milli mətbuatı-150

# Naxçıvanda media siyasəti: informasiya blokadasından qlobal yayıma



## Proloq yerinə

Biz XX əsrin bəşəriyyət üçün sürprizlər sandığından bir-bir çıxardığı çox möcüzələrin şahidi olmuşuq. Fantastik xəyalların gerçəkliyə çevrilməsi yaşadığımız dövrün ən nəzərəçarpan əlaməti kimi özünü təsdiq edir. Yazının ixtirası, kağızın kəşfi, kitab çapının meydana çıxması bəşər tarixində yeni inqilabların təməli, bünövrə daşıdır. İnformasiya daşıyıcısının ilkin vasitələri bizi qəzetdən radioya, televiziyadan internetə qədər gətirib çıxardı. Bütün bunlar informasiya inqilabının təzahürü olaraq bizi bu günə – internet və ya İKT əsri adlandırdığımız XXI əsrə qədər müşayiət edib.

## Blokada mətbuatı

İndi Naxçıvan Muxtar Respublikasında həyatın hər hansı bir mərhələsindən danışanda həmişə bir məqamı mütləq vurğulamalı oluruq: vaxtilə blokada şəraitinin yaratdığı vəziyyət. 90-cı illərdə blokada muxtar respublika həyatının bütün sahələrini iflic edən, insanların yaşayış tərzi üzərində mütləq hakim olan bir amil idi.

80-ci illərin sonlarında Naxçıvanla birlikdə Naxçıvan mətbuatı da blokada vəziyyətinə düşmüşdü. Lakin Naxçıvan mətbuatı yazırdı, yaradırdı, döyüşürdü. "Şərq qapısı" qəzeti və Naxçıvan teleradiosu blokada illərinin fədaisi olaraq tariximizə misilsiz xidmət edir, xalqımızın başına gətirilən oyunları hər nömrəsində, hər yayım saatında salnamələşdirirdi.

Həmin dövrdə Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Naxçıvan parlamentində təkcə muxtar respublika üçün yox, həm də bütün Azərbaycan üçün əhəmiyyət daşıyan qərarların qəbul olunması ilə nəticələndi. Dahi rəhbərin Naxçıvanda başlatdığı azadlıq mücadiləsi muxtar respublikanın blokada mətbuatının gündəlik mövzusuna çevrildi. Beləliklə, Naxçıvandan başlanan azadlıq mübarizəsi Azərbaycanın hər yerini bürüdüyü kimi, Naxçıvanın informasiya blokadasının yarılmasının da əsasını qoydu.

## Naxçıvanda media siyasəti: dünən və bu gün

Görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda işlədiyi dövrdə bu diyarda informasiya blokadasını yarmaq üçün mühüm işlər həyata keçirdi, yerli və beynəlxalq media orqanları ilə əlaqələrin qurulması uğrunda gərgin əmək sərf etdi. Bunun nəticəsində muxtar respublikada Azərbaycan televiziyasının yayımı bərpa edildi, Naxçıvan dünyaya açıldı. Naxçıvan televiziyasının yayımı və "Şərq qapısı" qəzetinin nəşri üçün sistemli tədbirlər həyata keçirildi. Ulu Öndərin həyata keçirdiyi xilaskarlıq missiyasını öz səhifələrində əks etdirən "Şərq qapısı" qəzeti nəinki muxtar respublikada, eləcə də ölkəmizdə əl-əl axtarılan mətbuat orqanına çevrildi.

Məhz həmin illərdə yeni dövrün dövlət-mətbuat münasibətlərinin uğurlu nəticəsi olaraq kütləvi informasiya vasitələri Heydər Əliyev siyasətinin ardıcıl və düzgün həyata keçirilməsində üzərlərinə düşən səfərbəredici missiyanı layiqincə yerinə yetirməyə çalışdı. Bu həm də müasir Naxçıvan mətbuatının yaranması ilə nəticələndi.

Bu gün artıq Naxçıvan bir zaman məkrli siyasət və təcavüz nəticəsində Ermənistan tərəfindən zorla salınan blokadanı informasiya baxımından çoxdan yarıb, düşmənlə aparılan informasiya savaşında cəbhəni bu istiqamətdə darmadağın edib. Əsl intibah dövrünü yaşayan Naxçıvan mətbuatının da intibah dövrünə imza atıb. Azərbaycan mediasının güclü bir qolunu təşkil edən və "Şərq qapısı" qəzeti ilə təşəkkül tapan Naxçıvan mətbuatı bölgənin dünənini, bu gününü qəzetlərin səhifələrinə həkk edib, lentlərin yaddaşına yazıb tarixləşdirir və gələcək nəsillərə ərməğan edir.




## Tənqiddən təqdirə qədər

Nəqliyyat-kommunikasiya əlaqələrinin düşmən tərəfindən məhv edilməsinin bu torpaqda yaşayan insanların həyat şərtlərini nə qədər çətinləşdirdiyini çoxumuz şəxsi yaşamından bilirik. O dövrün jurnalistləri də Naxçıvanın problemlərini mətbuat səhifələrində daha çox qabardırdılar.

Həmin illərin nəşrlərinə nəzər salanda Naxçıvan şəhərinin 8 kilometrliyində çıxan duzun mağazalarda tapılmamasından, şəhər daxilində, küçə və yolların kənarında yaşıllıqların azlığından, əlaqədar təşkilatların biganəliyindən, dəftərsiz şagirdlərdən, təbii qazın kəsilməsi, daş kömürün olmamasından, qış günlərində məktəblərin normal fəaliyyət göstərməməsindən, qırışığı açılmayan uşaqlardan, iqtisadi həyatın pozulmasından, ərzaq qıtlığından, dəyən iqtisadi ziyanın miqdarından, hesablanması mümkün olmayan mənəvi ziyandan bəhs edən çoxlu sayda yazılar görə bilərik. Bütün bunlar həmin dövrün acı gerçəkləri, danılmaz reallığı idi...

Aradan ötüb keçən zaman isə həmin mənzərəni və mətbuatın haqqında bəhs etdiyi mövzuları tamamilə dəyişdirdi. İndi mətbuat Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizindən, Azərbaycanı Türkiyə ilə bağlayacaq Qars-İğdır-Naxçıvan dəmir yolundan, Naxçıvan-İğdır qaz kəmərindən, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ndan, muxtar respublikanın yaşıllıq zolaqlarından, landşaftda mühüm yer tutan yaşıl parklardan, ən ucqar kəndlərdə belə tikilmiş modern təhsil ocaqlarından, pulsuz dərs vəsaitləri ilə təmin olunan şagirdlərdən, mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz olunan inzibati, tədris və yaşayış binalarından, müasir yol-nəqliyyat infrastrukturundan, ərzaq və enerji təhlükəsizliyinin təmin olunmasından, "yaşıl enerji" potensalının inkişafı və ixracından, bu torpaqların ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsindən fəxr və qürurla bəhs edir.

## Mətbuatın təkanverici qüvvəsi: dövlət qayğısı

Ulu Öndərin Naxçıvandan başlatdığı, digər sahələrlə yanaşı, mətbuatı da əhatə edən missiyasının ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində muxtar respublika mətbuatı yeni inkişaf mərhələsinə qovuşub. İctimai həyatın bütün sahələrinin yeniləşdirilməsi cəmiyyətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsini, medianın fəaliyyətinin təkmilləşdirilməsini zəruri edir.

"Şərq qapısı" qəzeti redaksiyasına və Naxçıvan televiziyasına yeni avadanlıqların alınması, qəzetin, televiziyanın saytlarının təkmilləşdirilməsi medianın müasir tələblərə cavab verəcək şəkildə təmin olunması üçün həyata keçirilən dövlət siyasətinin hərəkətverici qüvvəsi oldu. Naxçıvan teleradiosunun müstəqil kanalda yayımlanmağa başlaması, analoq yayımın yüksəkkeyfiyyətli rəqəmsal yayımla əvəzlənməsi həyata keçirilən işlərin əyani təzahürünə çevrildi.

> **Prezident İlham ƏLİYEV:**
>
> ***"Keçən yüzilliyin sonlarında xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizdə söz və məlumat azadlığının, fikir plüralizminin və digər demokratik dəyərlərin bərqərar olması üçün etibarlı zəmin yaratdı. Heydər Əliyev medianın inkişafını prioritet vəzifələrdən biri hesab etmiş, onun fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, inkişafını əngəlləyən süni maneələrin aradan qaldırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul etmiş, dövlət-media münasibətlərində mütərəqqi ənənələrin əsasını qoymuşdur."***
>
> *Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 aprel 2025-ci il Sərəncamından*

Azərbaycan Respublikası Prezidentinin "Media haqqında" Qanuna dəyişikliyin təsdiq edilməsi haqqında 1 may 2024-cü il tarixdə imzaladığı Qanuna əsasən "Şərq qapısı" qəzetinin rəsmi təsisçilik hüququ müvafiq qanunda təsbit olundu. "Media haqqında" Qanuna dəyişiklik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Şərq qapısı" qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsasının yaradılmasını təmin etdi. Sənədə əsasən "Media haqqında" Qanunun 59.2-ci maddəsində göstərilən çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının (qurumlarının) sırasına Naxçıvan Muxtar Respublikası Ali Məclisinin adı əlavə olunmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Şərq qapısı" qəzetinin təsisçisi statusunun hüquqi əsaslarının qanunvericilikdə təsbit edilməsini həyata keçirdi.

"Şərq qapısı" qəzeti muxtar respublikada çap mediasının yeganə subyekti olaraq fəaliyyət göstərir. 2024-cü ilin yanvar ayında qəzetin formatında dəyişiklik edilib, "Şərq qapısı" qəzeti həftədə 1 dəfə 12 səhifə həcmində dərc olunmağa başlayıb. 2024-cü ilin oktyabr ayında qəzet Medianın İnkişafı Agentliyinin Media Reyestrindən keçib. Qəzetin reyestrdən keçməsi ilə bağlı şəhadətnamə təqdim olunub. Sentyabrın 1-dən etibarən isə qəzetin yeni saytı istifadəyə verilib. 2024-cü ildə, eyni zamanda qəzetin yeni loqosu hazırlanaraq qəbul edilib. Artıq qəzetin PDF variantları çap mediası məhsullarının elektron yayım platformasına – e-köşkə (e-kiosk.az) yerləşdirilir.

İndi "Şərq qapısı" qəzetinin hazırladığı materiallara ölkə mətbuatında istinad olunur. Bu il mayın 30-da Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən "Şərq qapısı" qəzetinin də birgə təşkilatçılığı ilə "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı – "MEDİAFEST-2025"in keçirilməsi Naxçıvan mediasının keçdiyi yoldan və bugünkü inkişafından xəbər verir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 avqust tarixli Fərmanına əsasən Audiovizual Şura tərəfindən 2024-cü il 23 avqust tarixdə "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC-yə regional yerüstü televiziya yayımçısı lisenziyası və regional yerüstü radio yayımçısı lisenziyası verildi. Həmçinin regional yerüstü televiziya yayımını həyata keçirmək şərti ilə "Naxçıvan TV"yə peyk yayımı həyata keçirən platforma yayımçısı lisenziyasının da verilməsi haqqında qərar qəbul olundu. Bu il mayın 30-da Naxçıvanda keçirilən "Qlobal İnformasiya Mühiti və Media Trendləri" – "MEDİAFEST-2025" konfransı çərçivəsində Naxçıvan televiziyası "Azerspace-1" peykində yayıma başladı.




## İnformasiya təhlükəsizliyinə gedən yol

Bu gün Naxçıvanda medianın fəaliyyəti üçün lazımi şərait yaradılıb, informasiya təhlükəsizliyi təmin olunub. Güclü maddi-texniki baza, bütün yaşayış məntəqələrinin fiber-optik kabel xətti və sürətli internetlə, IP televiziya və rəqəmsal yayımla təmin olunması informasiya-məlumatlandırma işinin səmərəliliyini xeyli artırıb.

Müasir dövrdə internet mediası və sosial şəbəkələr istənilən sahədə ictimai fikri yönləndirən əsas vasitəyə çevrilib. Medianın yüz minlərlə izləyicisi olan aktiv sosial şəbəkə hesabları yaradılıb. Sosial şəbəkələrdə yayılan məlumatlar qısa müddətdə böyük ictimai rəy formalaşdırır. Ona görə də düzgün informasiyaların yayılması, səmərəli təbliğat və təşviqat mexanizminin müəyyənləşdirilməsi medianın əsas fəaliyyət istiqamətidir.

Bu gün Naxçıvan Muxtar Respublikası Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanmaqla və ölkə başçısı İlham Əliyevin apardığı siyasəti dəstəkləməklə təkcə ərazi-iqtisadi blokadasını deyil, informasiya blokadasını da aradan qaldırmaqda nümunə gücünə malikdir.

## Davamediciliyin təminatı: kadr hazırlığı

Medianın inkişafından danışarkən kadr hazırlığı məsələsi xüsusilə qeyd olunmalıdır. Çünki keyfiyyət dəyişikliyinə yalnız peşəkar kadr təminatı yaratmaqla nail olmaq mümkündür. Bu səbəbdən də teleradio, eləcə də "Şərq qapısı" qəzeti Jurnalistika ixtisası tələbələrinin fəaliyyətinə hərtərəfli şərait yaradır, istedadlı gənclər seçilərək işlə təmin olunur.

2001-ci ildən Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası fəaliyyət göstərir. Jurnalistika ixtisasının yaradıldığı ötən 24 il ərzində bu ixtisasın məzunları muxtar respublikanın müxtəlif kütləvi informasiya vasitələrində çalışaraq müasir mətbuatın formalaşmasına və inkişafına öz töhfələrini veriblər.

Tələbələrin iştirakı ilə keçirilən görüşlər, onların yaradıcılıq işində birbaşa iştirakı yaxşı kadr kimi formalaşmalarında xüsusi əhəmiyyət daşıyır. Beləliklə, bu mətbuat orqanları müvafiq ixtisasda təhsil alan tələbələrin bilik və bacarıqlarının inkişafı, eyni zamanda onların gələcəkdə peşəkar kadr kimi formalaşması və medianın kadr potensialının yaradılması işində birbaşa iştirak edirlər.

## Naxçıvan mətbuatı: qlobal şəbəkədən yayım

Müasir veb-texnologiyalar elektron mətbuat orqanlarının daha sürətli formalaşması və yayılmasına şərait yaradır. Artıq virtual məkanın yaratdığı imkanlar hesabına planetin hansısa nöqtəsində baş verən hadisə haqqında məlumatların operativ olaraq istənilən məkana çatdırılması an məsələsinə çevrilib. Naxçıvan Muxtar Respublikasında informasiyalaşma kimi nəhəng prosesin getməsi, informasiya cəmiyyətinin yaranması bu diyarda təkcə informasiya texnologiyaları sahəsində deyil, ümumilikdə, sosial-iqtisadi sahədə aparılan islahatların, görülən işlərin yaratdığı inkişaf nəticəsində mümkün olmuşdur.




İnformasiya blokadasının yarılması və qlobal şəbəkədən yayımın başlanması ən vacib məsələlərdən biri kimi qarşıda dururdu. 1999-cu ildə Naxçıvan Kompüter Mərkəzində internetə qoşulma imkanının əldə olunması, provayderlərin fəaliyyətə başlaması Naxçıvanın informasiya blokadasının yarılması istiqamətində atılan mühüm addımlar idi. 2005-ci ilin iyun ayında Naxçıvan Trans-Asiya-Avropa fiber-optik magistral xəttinə qoşulmaqla informasiyanın daha sürətli axınını təmin etmək imkanı əldə etdi və Naxçıvan Dövlət Universitetində "Elektron Naxçıvan: problemlər və həllər" mövzusunda ilk elmi-praktiki konfrans keçirildi. Azərbaycanda ilk dəfə Bakı-Naxçıvan arası videokonfrans bağlantısının qurulması ilə tarixi əhəmiyyətli bir hadisəyə imza atıldı.

2010-cu ildə Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin yaradılması ilə müasir, etibarlı internet saytlarının qurulması istiqamətində də muxtar respublikada zəngin təcrübə qazanmağa, bacarıqlı mütəxəssislər formalaşdırmağa imkan verdi. İndi ən ucqar kəndlərdə belə genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilir.

Naxçıvanın informasiya blokadasından çıxışının və qlobal şəbəkədən yayımının ilk qaranquşunu "Nuh yurdu" qəzetinin elektron versiyasının yaradılması hesab etmək olar. 2004-cü ildə muxtar respublikanın mətbuat tarixində ən əlamətdar hadisələrdən biri olur. Bu barədə Naxçıvan Şəhər İcra Hakimiyyətinin orqanı olan "Nuh yurdu" qəzetinin 2004-cü il 10 may tarixli sayında yazılıb: "*www.nuhyurdu.az* – qəzetimizin elektron variantda ilk nümunəsi Ümummilli Liderimizin 81 və Naxçıvan Muxtar Respublikasının 80 illiyinə bir töhfədir. Ümid edirik ki, Naxçıvan şəhərini elektron dünyada layiqincə təmsil edəcək". Düzdür, qəzetin internet üzərindən yayımlanması uzunmüddətli olmasa da, bu istiqamətdə həyata keçirilən ilk təşəbbüs kimi təqdirəlayiqdir.

Bu sahədə digər bir addım isə "Naxçıvanın səsi" radiosunun internet yayımının başlanması oldu. 2006-cı il yanvar ayının 17-dən etibarən *www.nakhchivan.az* üzərindən radionun yayıma başlaması elektron medianın internet üzərindən yayımı sahəsində ilk uğurlu addım oldu.

Naxçıvanın informasiya müharibəsində mühüm hadisələrdən biri 2012-ci ildə www.serqqapisi.az internet ünvanının yaradılması oldu. 2016-cı il oktyabr ayının 17-də isə Naxçıvan televiziyasının internet saytının istifadəyə verilməsi və televiziyanın internet üzərindən yayımının təmin olunması diyarımızın informasiya blokadasının yarılması yolunda ən böyük addım oldu.

2018-ci ildə Naxçıvan Muxtar Respublikasının ilk informasiya agentliyi – "Nuhçıxan" İnformasiya Agentliyi və onun *nuhcixan.az* saytı fəaliyyətə başladı.

İndi muxtar respublikada mərkəzi mətbuatın – Azərbaycan Dövlət Televiziyasının, İctimai televiziyasının, AZƏRTAC İnformasiya Agentliyinin, "Report", "APA", "Baku TV" kimi böyük media qurumlarının müxbir postları fəaliyyət göstərir. Bu isə sürətli informasiya axınının təmin edilməsinə və dolğun informasiyanın ölkə səviyyəsində yayımına əhəmiyyətli təsir göstərir.

## Son söz əvəzi

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 2025-ci il 25 aprel tarixli Sərəncamı milli mətbuatımızın, müasir mediamızın keçdiyi yolun yenidən aydınlanması, bu böyük tarixə diqqətin ifadəsidir.

Keçmiş informasiya blokadasından bugünkü qlobal yayıma qədər yol qət edən Naxçıvan mediası da böyük inkişaf yoluna qədəm qoyub. Naxçıvan Muxtar Respublikası haqqında dolğun informasiyanı qlobal şəbəkə üzərindən bütün dünyaya çatdırmağa qadir olan Naxçıvan mediası tarixi prosesin davamı və Naxçıvanın informasiya blokadasını çoxdan yarmış kütləvi informasiya vasitələri sistemində intibahın təzahürüdür.

**Məmməd BABAYEV**
**"Şərq qapısı" qəzetinin baş redaktor müavini**



# Azərbaycan milli mətbuatı-150

# Zaman dəyişsə də, qələmə sadiqlik dəyişmir

## Əməkdar jurnalist Hüseyn Əsgərovla 150 ilin işığında görüş

*Söz hər bir millətin yaddaşı, mətbuat isə onun danışan qəlbidir. Azərbaycan mətbuatı bu il 150 illik şanlı yolunu tamamlayır. Bu təkcə tarixi bir rəqəm deyil, yüz illərlə sözə xidmət edən insanların zəhmət salnaməsidir. Bu salnamədə Naxçıvan mətbuatının öz yeri, öz nəfəsi, öz imzası var. 1875-ci ildə Həsən bəy Zərdabinin nəşr etdirdiyi “Əkinçi” qəzetindən başlanan bu maarifçilik hərəkatı bu gün də müasir medianın çağırışları ilə uğurla davam etməkdədir. Bu tarixi hərəkatın bir parçası olan Naxçıvan mətbuatında hər zaman sözə və qələmə verilən dəyər zaman-zaman yerli jurnalistlərin fəaliyyətində əks olunub. Bu münasibətlə uzun illər Naxçıvan mətbuatında çalışmış, jurnalistika sahəsində zəngin təcrübəyə malik olan Əməkdar jurnalist, yazıçı-publisist Hüseyn Əsgərovla evində çay süfrəsi arxasında səmimi söhbətləşdik. Milli mətbuatımızın 150 illiyi ərəfəsində onunla söhbətimiz bizi yalnız keçmişə deyil, həm də gələcəyin jurnalistikasına apardı.*

***– Hüseyn müəllim, Naxçıvan mətbuatında fəaliyyətiniz necə başladı? İlk qələm təcrübələrinizi, o dövrün mətbu şəraitini, bir jurnalist kimi hansı çətinliklərlə üzləşdiyinizi necə xatırlayırsınız?***

– Hələ uşaqlıq illərində gələcəkdə diplomat olmağı, xarici ölkələrdə yaşayıb fəaliyyət göstərməyi arzulayırdım. Lakin elə həmin illərdə baxdığım “Fantomas” filmi bütün planlarımı alt-üst etdi. Kənd klubunda nümayiş etdirilən filmdən sonra hərə bir maska taxıb Fantomas olmuşdu. Təkcə məndən başqa. Çünki mən jurnalist Fandoru bəyənmişdim. Film boyu macəra, sərgüzəşt, sevgi, məhəbbət dolu jurnalist həyatı, qəzetlər, redaksiyalar. Bu aləmin sehrinə düşərək gələcəkdə jurnalist olmağa qərar verdim. Bu illərdə Cəlil Məmmədquluzadə yaradıcılığına maraq, xüsusən “Molla Nəsrəddin” jurnalından seçmələrlə tanışlıq qərarımı daha da qüvvətləndirdi. Arzularıma qovuşmaq üçün Şərur rayonunun “İşıqlı yol” qəzetinin nəzdində fəaliyyət göstərən “Şərur qönçələri” ədəbi birliyinə ayaq açdım. Orada da say-seçmə qələm əhli, müxbirlər, şairlər... Bu mənim jurnalistikaya bağlanmağıma bir stimul oldu. “Nəticə çıxaracaqlarmı?” adlı ilk yazım isə “Şərq qapısı” qəzetinin 1971-ci il 27 fevral tarixli nömrəsində dərc ediləndə inanılmaz bir hadisə baş verdi. Mənim – əl boyda bir uşağın yazısına görə kəndimizdəki kolxozun dağ boyda sədrinə töhmət elan olundu. O yazıdan sonra kəndin kinomexaniki məndən kino pulu almağa cəsarət etmədi (gülür).

Beləliklə, jurnalistikanın bir addımlığında idim. Təki yazasan, həm də faktlara əsaslanıb yazasan. Başladım kəndimizdən. Atam kolxozda hesabdar işlədiyindən statistika əlimin altında idi. Bir qalırdı ki, onları yazdığın xəbərdə əridəsən. Redaksiya işçilərinin köməyi ilə bu rəqəmlər qəzetdə “əriməyə” başladı və beləcə, mətbuatda yazılarım dərc edildi. Bu mənim üçün zəruri idi, çünki o zaman Jurnalistika fakültəsinə sənəd verəndə qəzetdə çap olunmuş yazılar da istəyirdilər. Orta məktəbi bitirdiyim il ADU-nun Jurnalistika fakültəsinə daxil oldum. Universiteti bitirdikdən sonra “Kirpi” jurnalında işə dəvət olunsam da, təyinatım “Şərq qapısı” qəzetinə oldu və burada oxucu vəzifəsinə təyin edildim. Burada həm də yazılar yazmağa başladım. Daha çox sadə əmək adamları – pambıqçı, tütünçü, sağıcı, heyvandar, malabaxan, bənna, dülgər, elektrik və digər sənət sahibləri ilə görüşüb, onların həyat və fəaliyyətini işıqlandırdım. “Briqadalar irəlidə gedirlər”, “Artıqlaması ilə”, “Peşəsinin ustası”, “Beşilliyi üç ildə”, “Təcrübəli tütünçü” adlı yazılarımı indi də saxlayıram.



***– Hüseyn müəllim, fikrinizcə, Naxçıvan mətbuatının keçdiyi əsas inkişaf mərhələləri hansılardır?***

– Öncə onu deyim ki, ilk əmək fəaliyyətinə başladığım “Şərq qapısı” mənim üçün həmişə əziz və doğma olub. Azərbaycan mətbuatı tarixində “Şərq qapısı” qəzetinin mühüm rolu və böyük xidmətləri vardır. Məsuliyyətli və şərəfli yol keçmiş “Şərq qapısı” qəzeti Azərbaycanın ayrılmaz hissəsini təşkil edən Naxçıvan Muxtar Respublikasında çap olunan və ölkə miqyasında qəbul edilən 104 yaşlı önəmli mətbuat orqanıdır. Qəzetlə əməkdaşlığım XX əsrin yetmişinci illərindən başladığından onun sonrakı inkişaf mərhələlərinin canlı şahidiyəm. Məhz həmin illərdən “Şərq qapısı” qəzetinin həyatında yeni tarixi dövr başlanmışdır. Bu dövrdə, bütövlükdə, Azərbaycan mətbuatında, o cümlədən də “Şərq qapısı” qəzetində Azərbaycan tarixi, Naxçıvanın keçmişi, çoxəsrlik ənənələrin və milli mədəniyyətin təbliği ilə əlaqədar məsələlərin işıqlandırılması zamanın əsas sifarişinə çevrilmişdi.



Onu da deyim ki, muxtar respublikanın mətbuat orqanı olan “Şərq qapısı” qəzetinin adı və mövqeyi regional funksiyaları deyil, böyük strateji mənaları ifadə etdiyi üçün sovet dövlətinin ən yüksək dairələrini düşündürməli olmuşdur. Ona görə də sovet hökumətinin bəhanə xarakterli qərarına əsasən “Şərq qapısı” qəzeti 30 oktyabr 1979-cu ildən “Sovet Naxçıvanı” adı ilə həm də rus dilində nəşrini davam etdirməyə başladı. Yerli ziyalıların səyləri ilə 1989-cu ildə “Şərq qapısı” yenidən öz adı ilə oxucularının görüşünə gəlməyə başladı. Qəzetin nəşri tarixində – 1990-cı ildə daha bir tarixi addım atılmışdır. Yaxın tariximizdən məlum olduğu kimi, 19 yanvar 1990-cı ildə SSRİ dövlətinin dəstəyi ilə Ermənistan SSR Naxçıvan Muxtar Respublikasını işğal etmək məqsədilə muxtar respublikanın ərazilərinə genişmiqyaslı hərbi hücumlar təşkil etmişdi. Sovet dövlətinin rəhbərliyindən heç bir dəstək ala bilməyən yerli əhalinin tələbi ilə 20 yanvar 1990-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti həm də Bakıda baş vermiş qanlı hadisələrə etiraz əlaməti olaraq Naxçıvanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. “Şərq qapısı” həmin qərarı qəzet səhifəsinə çıxarmaqla müstəqil Naxçıvan Muxtar Respublikanın mətbuat orqanı funksiyasını cəsarətlə həyata keçirdi. 1990-cı ilin yanvar-fevral aylarında “Şərq qapısı” qəzetinin 8 sayı o zaman bütün qəzetlərdə məcburi şəkildə yazılan “Bütün ölkələrin proletarları, birləşin” şüarı ilə deyil, “Birlik və demokratiya uğrunda” çağırışı ilə çap olunmuşdur.

Belə hesab edirəm ki, “Şərq qapısı” qəzeti bu gün də Naxçıvan Muxtar Respublikasının canlı sözüdür. Bu qəzet onun hər sayını həyəcanla gözləyən insanları ifadə etdiyi mətləblərlə, canlı, təsirli sözü ilə işığa doğru aparır. Naxçıvan diyarının inkişafının bütün mərhələlərini öyrənmək baxımından “Şərq qapısı”ndan mötəbər mənbə tapmaq çətindir.

***– Hüseyn müəllim, bir gənc jurnalist kimi sizə bu sualı ünvanlamağı özümə borc bilirəm. Maraqlıdır, sizin üçün yaxşı jurnalist kimdir? Və jurnalistikada peşəkarlıq səviyyəsini necə qiymətləndirirsiniz?***

– Mənə hərdən “Yaxşı jurnalist kimdir?” – deyə suallar verirlər. Mənim qənaətimə görə, yaxşı jurnalist ona tapşırılan cari işləri uğurla icra etməklə bərabər, cəmiyyətin inkişafına mane olan neqativ hallara, süründürməçilik və bürokratiyaya qarşı vətəndaş mövqeyi ilə yanaşanlar, eybəcərlikləri ifşa edəndir. Xorda hamı oxuya bilər, solo isə yalnız istedad tələb edir. Jurnalistika vətəndaş cəmiyyətinin vacib elementlərindən biridir. Jurnalist, eyni zamanda cəmiyyəti neqativlərdən təmizləyən, zərərvericiləri sıradan çıxaran, cəmiyyətin sanitarları, istiqamətverici, hərəkətverici insan olmalıdır. Vicdandan kənar hissləri daşıyan insanın jurnalistikada da yeri yoxdur. Yekəxana, ədabaz, müştəbeh olan adamlar isə heç vaxt jurnalist ola bilməzlər. Mətbuatın əsas prinsipləri olan obyektivliyi, qərəzsizliyi, ən əsası, vətənpərvərlik və milli şüuru əsas tutanlar əsl qələm sahibidirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Naxçıvanda keçirilən “MEDİAFEST-2025”də də bu məsələlərdən geniş bəhs olundu. Müasir dövrdə jurnalistin ictimai məsuliyyətini və informasiyanın dəqiqliyinin vacibliyini vurğulayaraq jurnalistikada etik qaydalara əməl etməyin önəmini diqqətə çatdırdılar.



***– Sizə daha bir sual da ünvanlamaq istəyirəm. Bu gün Naxçıvanda Jurnalistika ixtisasında təhsil alan gənclərin qarşısında hansı imkanlar və çağırışlar var? Biz gənc jurnalistlərə uğurlu karyera üçün hansı məsləhətləri verərdiniz?***

– 1875-ci ilin 22 iyul tarixində Həsən bəy Zərdabinin böyük səyi nəticəsində Azərbaycan jurnalistikasının bayraqdarı, anadilli ilk mətbu orqan olan “Əkinçi” qəzeti milli ictimai şüurun yuxuya verilmiş xam torpaqlarını şumlayıb, oraya milli varlığımızın münbit toxumlarını səpib. Bu toxumlar cücərib sonrakı onilliklərdə yeni-yeni dövri nəşrlərin yaranmasına, milli demokratik mətbuatın inkişafına güclü təkan olub. Sonra isə yüzlərlə qəzet-jurnal “Əkinçi”nin çırağını məşələ çevirib.

Prezident İlham Əliyevin 2025-ci il 25 aprel tarixli Azərbaycan milli mətbuatının 150 illik yubileyinin qeyd olunması ilə bağlı imzaladığı müvafiq Sərəncam ölkəmizdə Azərbaycan mediasına verilən yüksək dəyərin və jurnalistika sahəsində çalışanlara göstərilən hörmətin açıq təzahürüdür. Sərəncamda cənab Prezidentin Vətən müharibəsi dövründə mediamızın əsl vətənpərvərlik və həmrəylik nümunəsi ortaya qoyduğunu, düşmən qüvvələrin yaydığı saxta məlumatların ifşası istiqamətində xüsusi səy göstərdiyini, Silahlı Qüvvələrimizin rəşadəti ilə bağlı zəngin salnamə yaratdığını xüsusi vurğulaması onun müasir jurnalistikamıza nə qədər böyük önəm verdiyini göstərən yaddaqalan nüans kimi gələcək fəaliyyətlərində ölkə jurnalistlərinə stimul verəcək əhəmiyyətli məqamdır.

Mətbuat günü təkcə jurnalistlərin yox, bütövlükdə, cəmiyyətimizin bayramıdır. Çünki azad söz azad cəmiyyətin təməl daşıdır. Müstəqil, milli dövlətimizin quruculuğunda demokratik dəyərlərin inkişafında, cəmiyyətin elmi, siyasi-ideoloji, intellektinin və dünyagörüşünün, vətəndaşlıq qürurunun, dövlət sevgisi hissinin, vətənpərvərlik ruhunun yüksəlməsində Azərbaycan mətbuatının əvəzsiz rolu, mətbuat işçilərinin böyük zəhməti vardır. Bütün mətbuat işçilərini peşə bayramı münasibətilə ürəkdən təbrik edir, Azərbaycan xalqının və dövlətimizin inkişafı və qüdrətlənməsində göstərdiyi xidmətlərdə uğurlar arzulayıram.

Biz də Hüseyn müəllimə bu maraqlı və səmimi söhbətə görə dərin minnətdarlığımızı bildiririk. Hüseyn müəllim bu gün təqaüddə olsa da, biz gənc jurnalistlər üçün əsl örnəkdir. Qeyd edim ki, söhbətimizdən sonra Hüseyn müəllimin həyətyanı təsərrüfatına da baş çəkdik. Burada bir daha şahid olduq ki, Hüseyn müəllim “Əkinçi”nin ideyalarını təkcə mətbuatda deyil, həm də öz təsərrüfatında davam etdirir.

**Bülbül RÖVŞƏNQIZI**



# Azərbaycan milli mətbuatı-150

## “Şərq qapısı” qəzetinin dəyərli kollektivinə

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Nuray Əliyeva “Şərq qapısı” qəzetinə təbrik məktubu ünvanlayıb. Məktubda deyilir: “Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə Sizləri səmimi-qəlbdən təbrik edir, bu şərəfli və məsuliyyətli fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram!

1875-ci il iyulun 22-də maarifçi ziyalımız Həsən bəy Zərdabinin təşəbbüsü ilə nəşrə başlayan “Əkinçi” qəzeti ilə milli mətbuatımızın təməli qoyuldu. Bu mühüm hadisə təkcə bir qəzetin nəşri deyil, həm də xalqımızın milli oyanışının, mədəni inkişafının və ictimai düşüncəsinin formalaşmasında yeni bir mərhələnin başlanğıcı kimi tarixə düşdü.

Keçən 150 il ərzində milli mətbuatımız çətin, lakin şərəfli bir yol keçmiş, müxtəlif dövrlərdə senzura və təzyiqlərlə üzləşsə də həmişə haqqın, həqiqətin və azad sözün yanında olmuşdur. Xüsusilə müstəqillik dövründə mətbuat cəmiyyətin informasiya təminatında, milli dəyərlərin təbliğində və ictimai rəyin formalaşmasında mühüm rol oynamış, 44 günlük Vətən müharibəsi zamanı isə informasiya cəbhəsində fəal iştirak edərək dövlətin haqlı mövqeyinin yerli və beynəlxalq ictimaiyyətə çatdırılmasına əhəmiyyətli töhfə vermişdir.

Bu gün ölkəmizdə fəaliyyət göstərən media qurumları – qəzetlər, xəbər agentlikləri, televiziya və radio kanalları, həmçinin onlayn platformalar cəmiyyətə dolğun və operativ məlumatlar təqdim etməklə informasiya məkanının etibarlı dayaqlarına çevrilmişdir. Jurnalistlərimizin peşəkarlığı, prinsipiallığı və ictimai məsuliyyət hissi təqdirəlayiqdir.

İnanıram ki, milli mətbuatımız gələcəkdə də öz funksiyasını layiqincə yerinə yetirəcək, müasir texnologiyaların və qloballaşmanın yaratdığı çağırışlar fonunda da öz dəyərlərinə və prinsiplərinə sadiq qalacaqdır.

Bu əlamətdar gün münasibətilə bir daha təbrik edir, Sizlərə möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayır, qələminizin daim iti, sözünüzün təsirli, yolunuzun isə işıqlı olmasını diləyirəm”.

**Dərin hörmətlə,**
**Nuray ƏLİYEVA**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin deputatı**

## Naxçıvanın bölgə müxbirləri

Jurnalistika cəmiyyətin güzgüsü, informasiya isə bu güzgünün bütöv və dəqiq olmasını təmin edən vasitədir. Bu güzgüdə baş verənləri daha dəqiq görmək üçün yalnız mərkəzdə deyil, bölgələrdə baş verənləri də işıqlandırmaq lazımdır. Müasir jurnalistikada bu vəzifəni bölgə müxbirləri həyata keçirir. Onlar ucqar kəndlərdən tutmuş, şəhər və rayon mərkəzlərinədək baş verən hadisələri, sosial və iqtisadi prosesləri mərkəzi informasiya sisteminə daşıyan əsas sütunlardan biridir. Odur ki, bölgə müxbirləri təkcə jurnalist deyil, həm də yerli ictimaiyyətin hüquqlarını müdafiə edən, dövlət orqanlarını hesabatlı olmağa təşviq və məcbur edən, həmçinin yerli informasiya sisteminin təməlini təşkil edən peşəkar şəxslərdir.

Müasir dünyada informasiya cəmiyyətinin əsas təməl daşlarından biri azad mediadır və burada bölgə müxbirlərinin üzərinə daha böyük məsuliyyət düşür: onlar bölgədə yalnız informasiya daşıyıcısı yox, cəmiyyətin səsini eşidən və onu ictimaiyyətə, bəzən də dövlət qurumlarına çatdıran vacib vasitəçidirlər. Elə bu səbəbdən bölgə müxbirlərinin rolu xüsusilə əhəmiyyətlidir. Naxçıvanda fəaliyyət göstərən bölgə müxbirləri regionda baş verən hadisələri, sosial və iqtisadi prosesləri, ictimai narazılıqları və uğurları işıqlandıraraq mühüm bir informasiya missiyasını həyata keçirirlər. Eyni zamanda vətəndaşla dövlət arasında vasitəçi rolunu oynayırlar. Yerli əhalinin gündəlik həyatında qarşılaşdığı problemlər barədə hazırlanan reportajlar isə daim diqqət mərkəzinə düşür. Bəzi hallarda bu məlumatlar mərkəzi icra hakimiyyətinin müdaxiləsinə səbəb olur və konkret tədbirlərin görülməsi ilə nəticələnir. Beləliklə, muxtar respublikada fəaliyyət göstərən bölgə müxbirləri yalnız xəbərləri çatdırmır, həm də sosial dəyişikliklərə səbəb olan proseslərin iştirakçısına çevrilirlər. Bu baxımdan, onların fəaliyyəti həm ictimai nəzarətin güclənməsinə, həm də yerli problemlərin mərkəzi səviyyədə həllinə şərait yaradır.

Sevindirici haldır ki, son illərdə Naxçıvanın media sahəsində müxtəlif islahatlar aparılıb, Medianın İnkişafı Agentliyinin (MEDİA) Naxçıvan regional idarəsi yaradılıb, bölgə müxbirlərinin fəaliyyət mühitini təmin etmək üçün mühüm işlər görülüb. Bunun nəticəsidir ki, muxtar respublikada Azərbaycan televiziyası, İctimai televiziya, “AZƏRTAC”, “Report” İnformasiya Agentliyi, “APA” Media Qrupu, “Baku TV” kimi ölkənin böyük media qurumlarının bölgə postları yaradılıb. Bu da həmin qurumların bölgədə öz məlumatlarını daha geniş auditoriyaya çatdırmaq imkanı yaradır.



Naxçıvanda fəaliyyət göstərən bölgə müxbirləri təkcə sosial və iqtisadi mövzularla kifayətlənmir: onlar muxtar respublikada mədəniyyətin, tarixin və milli dəyərlərin qorunmasına da mühüm töhfələr verirlər. Bu dəyərlər onların hazırladığı reportajlar, videosüjetlər və məqalələr vasitəsilə geniş ictimaiyyətə tanıdılır. Bu baxımdan, bölgə müxbirlərinin fəaliyyəti həm də milli kimliyin qorunmasına xidmət edir. Mərkəzi media qurumları bölgə müxbirlərinin sayəsində daha geniş informasiya bazasına malik olur. Bu da medianın ölkə miqyasında daha balanslı və müxtəlif mövzularda yayım etməsini təmin edir.

Deyə bilərik ki, bu gün Naxçıvandakı bölgə müxbirləri ölkədə informasiya məkanının ayrılmaz hissəsi hesab olunurlar. Bu da regionda jurnalistikanın balanslı, həmçinin şəffaf şəkildə formalaşmasında mühüm rol oynayır. Bölgə müxbirləri yalnız informasiya daşıyıcısı deyil, həm də ictimai maraqların müdafiəçisi, sosial ədalətə töhfə verən fəal iştirakçılardır. Onların fəaliyyətinin stimullaşdırılması və hüquqlarının qorunması isə muxtar respublikada medianın inkişafı baxımından strateji əhəmiyyət daşıyır.

✍ **Ceyhun MƏMMƏDOV**

## Nəşriyyat işçiləri mətbuatın 150 illik yubileyinə töhfələrini verir









Jurnalistikamızın və mətbuatımızın mənəvi atası olan Həsən bəy Zərdabinin böyük səyləri hesabına işıq üzü görən “Əkinçi” qəzetinin və məntiq etibarilə milli mətbuatımızın 150 illiyini qeyd edirik. Tarix üçün qısa zaman kəsiyi olan bu 150 ildə mətbuatımızın keçdiyi keşməkeşli yolda rastlaşdığı çətinliklər, məruz qaldığı təhdidlər, qazandığı uğurlar barədə geniş danışmaq fikrində deyilik. Onu xüsusilə diqqətə çatdırmaq istəyirik ki, milli mətbuatımızın ən qocaman üzvlərindən biri kimi 104 yaşlı “Şərq qapısı” qəzeti olaraq biz də həmin əlamətdar günü böyük uğurlarımızla qarşılayırıq. Qəzetin çapa hazırlanmasında kollektiv üzvlərinin hər birinin əməyi danılmazdır. Bir-birini tamamlayan zəhmətdir. Necə deyərlər, redaksiyanın sürücüsündən tutmuş rəhbərinədək bir-biri ilə sıx və zəncirvari fəaliyyət göstərməsi “Şərq qapısı”nı Azərbaycan mediasında ön sıraya çıxarıb.

Bayram ərəfəsində qələmə aldığımız bu yazıda “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi haqqında danışmaq istəyirik. Bizimlə eyni binada fəaliyyət göstərən birlik də bu bayrama ciddi hazırlaşır. Öncə onu qeyd edək ki, 1921-ci ildə “Şərq qapısı” qəzeti fəaliyyətə başlayarkən onun tabeliyində yaradılmış mətbəə 1938-ci ildə “Naxçıvan mətbəəsi” adı ilə müstəqil müəssisəyə çevrilmişdir. 1997-ci ildən indiki adı ilə fəaliyyət göstərir.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin fəaliyyəti, iş prosesi ilə bağlı birliyin direktoru Pərvin Məmmədov ilə həmsöhbət olduq. Müsahibimiz bildirdi: “Birlik qəzetlə yanaşı, digər çap məhsulları da istehsal edir. Sifarişçi məmnunluğunu qazanmaq və həmin məhsulların keyfiyyətli istehsalını nəzərə alaraq “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin fəaliyyəti üçün yaradılmış şərait yüksək səviyyədədir. Birliyin maddi-texniki bazasının da möhkəmləndirilməsi qayğısına qalınıb və müntəzəm olaraq təşkilatımız yeni nəsil avadanlıqlarla təchiz edilir. Artıq nəşriyyatımız ölkəmizdə fəaliyyət göstərən eyni profilli müəssisələrlə bir sırada dayanır. Belə ki, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin 2010-cu ildə istifadəyə verilmiş yeni binada yerləşdirilməsi və burada yüksək poliqrafik göstəricilərə malik Almaniya istehsalı olan çap avadanlığının quraşdırılması, 2015-ci ildə isə ikinci belə bir avadanlığın alınması muxtar respublikada nəşr-poliqrafiya işinin keyfiyyətini xeyli yüksəltmişdir. Nəşriyyat “Şərq qapısı” ilə yanaşı, müxtəlif kitab və jurnalların rəngli formatda nəşr olunmasını, müxtəlif idarə və təşkilatlar üçün dəftərxana ləvazimatları, sadə və ciddi hesabat blankları, müxtəlif qəbzlər, təqvimlər, etiketlər, dəftərlərin hazırlanmasını həyata keçirir. Muxtar respublikada fəaliyyət göstərən elm və mədəniyyət müəssisələri tərəfindən də müxtəlif çap sifarişləri daxil olur, bu məhsullar yüksək standartlar və müasir dizayn əsasında qısa müddətdə hazırlanır”.

Pərvin müəllim onu da qeyd etdi ki, bu gün mətbuat sahəsində çalışan insanlarla yanaşı, nəşriyyat və poliqrafiya əməkdaşlarının əməyinin də qiymətləndirilməsi dövlətimizin mətbuat sahəsinə diqqət və qayğısının nəticəsidir. Son illər birliyin əməkdaşlarının iş şəraiti daha da yaxşılaşdırılıb, əməkhaqları artırılıb və uzun illər bu sahəyə əmək sərf edən təcrübəli əməkdaşların əməyi dövlətimiz tərəfindən dəyərləndirilib.

Öyrəndik ki, əvvəllər mətbəədə çap edilən məhsullar primitiv alınır, sifarişçi tələbini, demək olar ki, ödəmirdi. Köhnə, istismar müddətini başa vurmuş maşınlarda çap nümunələri keyfiyyətsiz alınırdı. Birliyin yeni binada fəaliyyətə başlaması bu nöqsanların aradan qaldırılmasına imkan verdi.

Nəşriyyatda qəzet və kitabların nəşri prosesi ilə də tanış olduq. Burada materialların qəzetin səhifələrinə köçürülərkən bir çox proseslərdən keçməsini və mətbəə əməkdaşlarının zəhməti sayəsində oxucuların görüşünə gəlməsini gördük. Belə ki, redaksiyamızda hazırladığımız materiallar kompüterdə yığılıb dizayn edildikdən sonra PDF formatında nəşriyyata təqdim olunur. Burada ən müasir poliqrafiya avadanlıqları ilə müvafiq dizayn, rəngayırma, qatlama və digər proseslər həyata keçirilir. Xüsusilə qəzet səhifələrinin nəfis tərtibatda və keyfiyyətlə nəşr olunması burada çalışan əməkdaşlardan yüksək diqqət tələb edir. Çap prosesi günün sonundan gecə saatlarınadək davam edir. Kitab və jurnalların nəşri də ən müasir tələblər əsasında və keyfiyyətli şəkildə aparılır. Buradakı müasir avadanlıqlar kitabların bir neçə variantda və minlərlə tirajda nəşrinə imkan verir.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi bizim üçün doğma təşkilatdır. Əl-ələ verib üzərimizə düşən tapşırıqları, qarşımıza qoyulan vəzifələri birgə yerinə yetirmək yolunda nəşriyyat işçilərinə müvəffəqiyyətlər arzulayır, bu bayram günündə onları “Şərq qapısı”nın kollektivi adından ürəkdən təbrik edirik.

✍ **Aidə İBRAHİMOVA**

# Azərbaycan milli mətbuatı-150

## Mətbuatın 150 illik şərəfli yolu yeni nəsil jurnalistlər üçün ilham mənbəyidir

Jurnalistikaya olan marağım uşaq yaşlarımdan başlayıb. Hər zaman xəbərləri izləməyə, baş verən hadisələrin arxa planını anlamağa və cəmiyyətin səsini duymağa çalışırdım. Elə bu maraq da məni jurnalistika ixtisasını seçməyə yönəltdi. Təkcə nəzəri biliklərlə kifayətlənməyib, praktikada da özümü sınamağa çalışdım.

Universitetimizin Media Mərkəzində könüllü kimi fəaliyyətə başladım. Burada ilk dəfə kamera arxasında və qarşısında dayanmağı, xəbər hazırlamağın əsas mərhələlərini, komanda ilə işləməyin məsuliyyətini öyrəndim. Daha sonra Medianın İnkişaf Agentliyində könüllü fəaliyyətim oldu. Bu təcrübə mənə medianın cəmiyyət həyatında necə mühüm rol oynadığını daha dərindən anlamağa yardım etdi.


**Pərvin SƏFƏRZADƏ**
**Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının III kurs tələbəsi**

Hazırda isə Naxçıvan Televiziyasında təcrübədəyəm. Hər gün efirə çıxarılan süjet, hazırlanan müsahibə mənim üçün yeni bir dərsdir. Jurnalistika sahəsi yalnız məlumat ötürmək deyil, həm də etibarlılıq, obyektivlik, operativlik və yaradıcı düşüncə tələb edir. Bu sahədə həm çalışmaq, həm də öyrənmək əvəzolunmaz bir fürsətdir.

Mətbuatın 150 illik şərəfli yolu yeni nəsil jurnalistlər üçün həm ilham mənbəyi, həm də dəyərli bir mirasdır. Mən də bu mirası qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək üçün bu peşəni seçdim. Sevgim, marağım və inamımla jurnalistika yolunda irəliləməyə davam edirəm.

## Mətbuat xalqın işıq yoludur


**Nurtac İSMAYILOVA**
**Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının II kurs tələbəsi**

Xalqın maariflənməsində böyük rolu olan “Əkinçi” qəzeti həm də jurnalistlərin yetişməsi üçün məktəb rolunu oynayıb. Elə buna görə də biz fəxrlə deyə bilərik ki, Azərbaycan mətbuatı köklü bir tarixə sahibdir. Bu inkişaf biz tələbələr üçündə böyük fürsətlər yaradır. İstər Naxçıvan Dövlət Universiteti, istər Naxçıvan televiziyası, istərsə də “Şərq qapısı” qəzeti tələbələrin tədris ili boyunca təcrübə yolunu keçərək peşəkarlaşmalarında köməklik göstərir. Bu fürsəti dəyərləndirən bir gənc olaraq, içində olduğumuz bu tarixi anda Naxçıvan Dövlət Universitetinin Media Mərkəzində “Tələbə imzası” rubrikasında veriliş, xəbər aparıcısı, Naxçıvan Televiziyasında müəyyən mövzuda süjet hazırlamışam. Naxçıvan Muxtar Respublikasında Azərbaycanda Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbu orqanı olan “Şərq qapısı” qəzetinin birgə təşkilatçılığı ilə keçirilən “Qlobal İnformasiya Mühiti və Media Trendləri” konfransı – “MEDİAFEST-2025” tədbirində Azərbaycanın bir çox tanınmış jurnalistləri ilə tanış olmaq imkanı əldə etdim. Bu imkanlar mənim üçün, sadəcə, təcrübə deyil, həm də həyat dərsi oldu.

Mətbuat xalqın işıq yoludur, nə qədər ki mətbuatımız inkişaf edir xalqımız bir o qədər maariflənir.

## Qələm sahiblərinin yeni nəsli



Duyqu İbrahimli Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin Jurnalistika ixtisası üzrə təhsil alır. Duyqunu redaksiyamıza dəvət edib onunla həmsöhbət olduq. Öyrəndik ki, o hələ uşaqlıqdan bu sahəyə maraq göstərmiş, nəticədə, istəyinə çataraq artıq gənc jurnalist kimi fəaliyyətə başlamışdır. İlk zamanlar universitetin Media Mərkəzində könüllü kimi çalışmağa başlayan Duyqunun bu müddət ərzində “Yeni fikir” qəzetində yazıları dərc olunub, eyni zamanda müxtəlif süjetlər hazırlayıb. Xəbərin yazılması, süjetin quruluşu, müsahibələrin təşkili və montaj mərhələsi də daxil olmaqla medianın bir çox vacib istiqamətində fəallıq göstərib.

Daha sonra Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində könüllü fəaliyyət göstərmiş, müxtəlif tədbir və layihələrdə fəallıq nümayiş etdirmişdir.

Müsahibim deyir ki, xüsusilə AzTV-də təşkil olunan ekskursiya televiziya mühitini yaxından tanımasında ona böyük kömək olub. Duyqu 16-22 dekabr 2024-cü il tarixlərdə keçirilən “Media savadlılığı” həftəsində fəal iştirak etmiş, agentlik tərəfindən diploma təltif olunmuşdur. “Media könüllüləri” proqramını uğurla başa vuran gənc jurnalistin növbəti dəfə təltif edilməsi isə onun media sahəsinə olan sevgisini daha da gücləndirmişdir. Məhz bundan sonra o istiqamətini müəyyənləşdirmişdir. Hazırda Naxçıvan televiziyasında çalışan Duyqu deyir ki, burada peşəkar jurnalistlərlə birgə fəaliyyət göstərmək, özümü real media mühitində sınamaq mənim üçün böyük təcrübədir. Bu gün gənclərə media sahəsində göstərilən dəstək və yaradılan imkanlar bir gənc olaraq məni xüsusilə sevindirir. Azərbaycan mətbuatının 150 illiyinə həsr olunmuş tədbirlərə cəlb olunmağımı gənclərə göstərilən xüsusi qayğı hesab edirəm.

Peşəkar jurnalistləri özünə örnək götürən Duyqu qeyd edir ki, biz yeni nəsil jurnalistlər də təcrübəli qələm sahiblərinin yolunu davam etdirərək layiqli şəkildə peşəmizi yerinə yetirəcəyimizə inanırıq. Gənc yaşımda sevdiyim işlə məşğul olmaq və bu sahədə irəliləmək mənə qürur verir.

Gələcəkdə media sahəsində daha böyük uğurlara imza atacağına əmin olduğumuz bu gəncimizin yolu açıq, qələmi iti olsun.

## Həsən bəy Zərdabi “Əkinçi” ilə bir qığılcım yandırıbsa, biz həmin qığılcımı alova çevirməyə borcluyuq...

Bir gənc jurnalist kimi sevinirəm ki, Azərbaycanda jurnalistikanın inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Hərtərəfli dövlət dəstəyi, qanunvericilik təşəbbüsləri, jurnalistlərin sosial rifahının yaxşılaşdırılması üçün atılan addımlar, Media haqqında qanun, Medianın İnkişafı Agentliyinin fəaliyyəti mətbuatın daha sistemli və keyfiyyətli inkişafına zəmin yaradır. Əlbəttə, bütün bu imkanlarla yanaşı, jurnalistin şəxsi məsuliyyəti, peşəsinə olan münasibəti də önəmlidir. Peşəkarlıq yalnız texniki biliklərlə ölçülmür, vicdanla, prinsipial mövqe ilə tamamlanır.

Bu gün Jurnalistika ixtisasında təhsil alan, eyni zamanda fəaliyyət göstərən bir tələbə olaraq bu 150 illik tarixin məsuliyyətini dərindən hiss edirəm. Jurnalistika mənim üçün təkcə xəbər yazmaq yox, həm də cəmiyyətə xidmət etmək, insanlara səs olmaq vasitəsidir. Yazdığım hər yazıda kimsə öz problemlərini, kimsə öz uğurlarını görə bilər. Qələmimin gücünə, sözümün təsirinə inanıram. Çünki bu inam məhz 150 il əvvəl başlayan mətbuat tarixindən gəlir. Həsən bəy Zərdabinin “Əkinçi” ilə başlatdığı bu yolun davamçısı olmaq həm qürurverici, həm də məsuliyyətlidir.

Elə mətbuatın 150 illiyi çərçivəsində keçirilən tədbirlərdən biri olan “Qlobal İnformasiya Mühiti və Media Trendləri” konfransı – “MEDİAFEST-2025” jurnalistika tələbələri üçün unudulmaz təcrübə oldu. Bu festival mənim kimi gənc və gələcək jurnalistlər üçün yalnız hər hansı bir tədbir yox, həm də öyrənmək, ilham almaq və peşəkarlarla bir araya gəlmək fürsəti idi.

Festivalda ölkənin tanınmış jurnalistləri, qəzet və jurnal redaktorları və televiziya simaları ilə bir araya gəldik. Onlarla ünsiyyət, mətbuat cəfəkeşi olan belə insanların təcrübələrini dinləmək mənə bu sahənin nə qədər məsuliyyətli və eyni zamanda nə qədər ilhamverici olduğunu bir daha göstərdi. Bu görüşlər mənə göstərdi ki, jurnalist olmaq təkcə məlumat ötürmək deyil, həm də ictimai vicdanı təmsil etməkdir.


✍ **Elnurə CƏFƏROVA**

“MEDİAFEST” zamanı keçirilən görüşlərdə bizə müasir jurnalistikada faktların yoxlanması, mənbə etibarlılığı, etik davranış qaydaları, sosial medianın imkanları və təhlükələri kimi vacib mövzulardan danışıldı. Həm nəzəri biliklərimizi təzələdik, həm də real praktik nümunələrlə tanış olduq.

Festival həm də bizim, jurnalistika tələbələrinin bir araya gəlib fikir mübadiləsi apardığı, gələcəyə dair arzuları bölüşdüyü bir məkan idi. Bəzilərimiz qəzet jurnalistikasında işləmək istəyir, bəzilərimiz televiziyada, bəzilərimiz isə yeni medianın imkanlarını araşdırırıq. Amma hamımızı birləşdirən bir məqsəd var: sözün gücünə inanırıq və bu gücdən düzgün istifadə etmək istəyirik.

Məhz bu tədbirdə bir daha əmin oldum ki, 150 illik zəngin mətbuat tarixinin davamçısı olmaq bizim üçün yalnız şərəf deyil, həm də borcdur. Bu borc doğru informasiya yaymaq, insanlara həqiqəti çatdırmaq və cəmiyyətə vicdanlı xidmət göstərmək borcudur.

“MEDİAFEST”in sonunda düşündüm: Həsən bəy Zərdabi 1875-ci ildə “Əkinçi” ilə bir qığılcım yandırdısa, biz bu gün həmin qığılcımı alova çevirməyə borcluyuq. Mən də bu məşəlin daşıyıcısı olmalıyam: dürüst, vicdanlı və prinsiplərinə sadiq bir jurnalist kimi.

Mətbuatın 150 illiyi təkcə yubiley deyil, həm də hesabatdır. 150 illik tarix təkcə keçmişə baxmaq üçün deyil, həm də gələcəyi planlamaq üçündür. Nə qədər ki cəmiyyətdə sözə ehtiyac var, nə qədər ki haqsızlığa qarşı susmayanlar var, mətbuat yaşayacaq. Azərbaycan mətbuatı da bu yaşını bu ruhla qeyd edir: şərəfli, mübariz və qürurlu.

## 150 yaşlı qoca çinarın balaca fidanları



Artıq iki ildən çoxdur ki, muxtar respublikamızda “Məktəbli” adlı qəzet fəaliyyət göstərir. Bu qəzeti digər mətbuat orqanlarından fərqləndirən əsas cəhət qəzetin materiallarının təkcə peşəkar jurnalistlər yox, məktəblilər tərəfindən də hazırlanmasıdır. Qəzetdə həvəskar məktəbli rəssamların, fotoqrafların, yazarların redaksiyaya ünvanladığı esse, hekayə, şeir, foto və rəsmləri yer alır. Qeyd edək ki, hazırda “Məktəbli” qəzetində 5 həvəskar müxbir, 2 həvəskar rəssam və bir fotomüxbir fəaliyyət göstərir.

Milli mətbuatımızın 150 illiyini qeyd edəcəyimiz tarixi gün ərəfəsində biz də 104 yaşlı qoca çinarın – “Şərq qapısı” qəzetinin kölgəsində balaca müxbirlərlə görüşüb onları yaxından tanımaq istədik. İlk müsahibimiz qəzetdə maraqlı esseləri ilə seçilən Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Lalə Quluzadədir.

13 yaşlı Lalə deyir ki, “Məktəbli” qəzeti ilə ilk tanışlığı elə məktəbdə olub. Burada həmyaşıdlarının müxtəlif mövzularda esselərlə çıxış etdiyini gördükdə o da esselər yazaraq qəzetə göndərmək qərarına gəlib və qəzetdəki fəal iştirakına görə bu il “Həvəskar müxbir” adına layiq görülüb. O deyir: “Çox sevinirəm ki, məktəblilərə xitab edən qəzetin həvəskar müxbirləri sırasında mən də varam. Ən böyük arzum gələcəkdə peşəkar jurnalist kimi Vətənə, xalqa xidmət etməkdir”.

Kiçikyaşlı həvəskar rəssam Bəhruz Kəngərli Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin 4-cü sinif şagirdidir.

“Məktəbli” qəzetinin həvəskar rəssamı olan Bəhruz Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbində rəssamlıq üzrə təhsil alır. Bəhruz deyir ki, o həm qəzetin rəsm guşəsinə rəsmlər göndərir, həm də digər uşaqların yazdıqları hekayə və nağıllara uyğun rəsmlər çəkir. Qeyd edək ki, balaca Bəhruzun dahi rəssam Bəhruz Kəngərlinin “Köç” əsərindən təsirlənərək çəkdiyi rəsm xüsusi maraqla qarşılanıb. Bəhruzun ən böyük xəyalı bərpaçı rəssam olmaqdır. “MEDİAFEST-2025”də də iştirak edən müsahibimin ağ-qara fonda çəkdiyi Həsən bəy Zərdabinin rəsmi tədbir iştirakçılarının diqqətini cəlb edib.



Qəzetdə fəallıq göstərən digər balaca 9 yaşlı Mirhüseyn Seyidli Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin 4-cü sinif şagirdidir. 2024-cü ilin mart ayından qəzetlə əməkdaşlıq edən Mirhüseyn deyir ki, o, qəzetə göndərilən hekayələrə uyğun rəsmlər də çəkir. Məktəbli qəzetinin həvəskar rəssamı adına layiq görülməyi isə onu daha da ruhlandırıb.

Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Kənan Kamilli gələcəyin fotomüxbiri olmaq yolunda ilk addımlarını atır və “Məktəbli” qəzeti onun təcrübə əldə etməsində böyük rola malikdir. Mütəmadi olaraq qəzetə çəkdiyi fotoları göndərən Kənan deyir ki, fotoqrafiya mənim hobbimdir. Fotomüxbirlik isə, həqiqətən, maraqlı bir işdir və mən ətrafda olan gözəllikləri hamıya çatdırmaqdan zövq alıram.

Son müsahibim Mahir Oruclu Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdidir. “Məktəbli” qəzetinin balaca oxucuları onu maraqlı hekayələrin müəllifi kimi tanıyır. Mahir bildirir ki, lap kiçik yaşlarından nağıl və hekayə kitabları oxumağı çox sevir. Özü də ətrafında baş verən hadisələrlə bağlı hekayələr yazmağa başlayıb. Yazdıqlarını “Məktəbli” qəzetinin ünvanına göndərən Mahir mütəmadi əməkdaşlıq etdiyinə görə qəzetin həvəskar müxbiri olub. Onun arzusu gələcəkdə yazıçı jurnalist olmaqdır.

Bu gün gələcəkdə Azərbaycan mətbuatına öz bacarıqları ilə töhfə verməyə çalışan balaca məktəblilərlə həmsöhbət olduq. İnanırıq ki, ulu Naxçıvanın balaca fidanları gələcəkdə xan çinara çevrilib Vətənimizin tarixini, gözəlliklərini yaddaşa köçürən istedadlı şəxslərdən olacaqlar.

✍ **Türkanə ƏSƏDOVA**

# Naxçıvanın su hövzələrinə mediatur təşkil edilib



*Su ehtiyatlarının getdikcə azalması və iqlim dəyişikliyinin yaratdığı çağırışlar fonunda qlobal miqyasda suya qənaət və səmərəli istifadənin önəmi daha da artır. Bu məqsədlə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tərəfindən qlobal su böhranına, sudan səmərəli və qənaətli istifadənin vacibliyinə ictimai diqqəti artırmaq üçün muxtar respublikanın su hövzələrinə mediatur təşkil olunub.*





Mediatur çərçivəsində jurnalistlər ilk olaraq Şahbuz rayonunun ərazisində, dəniz səviyyəsindən 2424 metr yüksəklikdə yerləşən “Qanlıgöl” sututarına baş çəkiblər. Burada məlumat verilib ki, ötən il həyata keçirilmiş mühüm və strateji əhəmiyyət daşıyan layihələrdən biri də “Qanlıgöl” sututarının suburaxıcı qülləsinin əsaslı şəkildə təmir olunmasıdır. Uzun illər təmir edilməyən və nəticədə, istifadəyə yararsız hala düşmüş bu mühüm hidrotexniki qurğu, peşəkar yanaşma və müasir texnologiyalarla bərpa olunaraq öz funksionallığını tam şəkildə bərpa edib.



Sonra jurnalistlər Şahbuz Şəhər Təmizləyici Qurğular Kompleksinə və Şahbuz Çirkab Su Təmizləyici Qurğular Kompleksinə baxış keçiriblər. Media nümayəndələri komplekslərin ümumi infrastrukturu, texnoloji avadanlıqları və fəaliyyət prinsipi ilə yaxından tanış olublar. Mütəxəssislər tərəfindən jurnalistlərə komplekslərin gündəlik iş rejimi, çirkab suların mərhələli şəkildə təmizlənməsi prosesi, ekoloji tələblərə uyğun aparılan nəzarət mexanizmləri barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, bu qurğular müasir standartlara uyğun şəkildə qurulub, bölgədə ekoloji tarazlığın qorunması, əhalinin dayanıqlı və təmiz içməli su ilə təminatı baxımından mühüm əhəmiyyət daşıyır.

Səfər zamanı media nümayəndələri, həmçinin Batabat yaylağında yerləşən unikal Batabat göllərinə də baxış keçiriblər. Sonda isə hazırda su səviyyəsi minimum həddə yaxınlaşan Heydər Əliyev su anbarında vəziyyətlə tanış olublar.

Mediatur çərçivəsində su ehtiyatlarının idarə olunması sahəsində həyata keçirilən tədbirlər, muxtar respublikanın içməli və suvarma su təminatının mövcud vəziyyəti, infrastruktur və görülən işlərlə əyani şəkildə tanış olan mediatur iştirakçılarının bütün sualları ətraflı şəkildə cavablandırılıb, jurnalistlərə bölgədəki su təsərrüfatının vəziyyəti və aparılan tədbirlər barədə ətraflı məlumat verilib.

## Naxçıvanda içməli su təminatını yaxşılaşdıracaq 16 layihənin icrası nəzərdə tutulur



“Ötən il Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tərəfindən həyata keçirilən mühüm layihələrdən biri məhz Şahbuz rayonunda yerləşən “Qanlıgöl” sututarının suburaxıcı qülləsinin əsaslı təmiridir. Dəniz səviyyəsindən 2424 metr yüksəklikdə yerləşən, Naxçıvanın görkəmli tarixi şəxsiyyəti olan Kəlbəli xan Kəngərlinin himayəsi ilə 1864-cü ildə inşa edilmiş bu sututar bölgənin həm içməli, həm də suvarma suyunun təminatında önəmli paya sahibdir. Bu hövzə həm 350 hektar sahənin suvarılmasında, həm də içməli su kapitajlarının qidalanmasında mühüm rol oynayır”.

Bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Malik Rzayev deyib.

O qeyd edib ki, uzun müddət “Qanlıgöl” sututarının suburaxıcı qülləsində təmir-bərpa işlərinin aparılmaması həmin qüllənin müəyyən hissəsinin yararsız hala düşməsinə səbəb olub ki, bu da müəyyən ərazilərin su təminatında böyük problemlərə yol açıb: “Qlobal səviyyədə baş verən proseslər sututarlarına diqqət yetirməyi vacib sayır. Hər il biz yağıntıların azaldığını müşahidə edirik. Bu il də Naxçıvanda su ilə bağlı həyəcan təbili çalınır. Sututarlarımızda suyun azlığı bizə əsas verir ki, “Qanlıgöl” sututarına bənzər layihələri həyata keçirək. Ümumilikdə, 850 min kubmetr tutumu olan sututarının artıq 830 min kubmetri, yəni, təqribən, 97 faizi dolub, bu da bölgə üçün mühüm əhəmiyyət kəsb edir”.

İdarə rəisi vurğulayıb ki, bu gün “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın Tədbirlər Planında nəzərdə tutulmuş, böhran vəziyyətindən çıxmağa imkan yaradacaq layihələr vardır. Bu layihələrdən ən mühümü Araz su anbarından Heydər Əliyev su anbarına təzyiqli boru xətti ilə suyun çəkilməsidir. 2025-2027-ci illər üçün Təfsilatlı Tədbirlər Planına əsasən, ümumilikdə, icraçısı olduğumuz alt bəndlər daxil 16 yarımbəndlik tədbirlərin icrası nəzərdə tutulub. Bunlardan artıq 12-nin icrasına başlanılıb. Eyni zamanda 90-na yaxın kənd və qəsəbədə içməli su-kanalizasiya xətlərinin dayanıqlı su mənbələrindən qidalanmasının layihələndirilməsi üçün müqavilə bağlanılıb. Yaxın zamanlarda icrasına başlanılacaq.



# Uşaq kitabxanasına yeni kitablar təqdim olunub



İyulun 15-də "Əcəmi Seyrangahı" Mədəniyyət və İstirahət Kompleksində Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasına təqdim olunan yeni kitabların təqdimat mərasimi keçirilib.

Kitablar Bakıda fəaliyyət göstərən uşaq ədəbiyyatına xüsusi marağı olan və maarifləndirici təşəbbüsləri dəstəkləyən bir kitabsevər tərəfindən kitabxanaya hədiyyə edilib. Bu nəcib təşəbbüs uşaqların oxu vərdişlərinin formalaşması, dünyagörüşlərinin genişlənməsi və kitablarla erkən yaşdan dostluq etməsi baxımından yüksək qiymətləndirilir.

Tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşı Musa Məmmədov açaraq bildirib ki, uşaqlar cəmiyyətimizin təməlidir və onların sağlam, xoşbəxt, savadlı, vətənpərvər ruhda yetişməsi dövlət siyasətində mühüm yer tutur. Gələcəyimizin möhkəm əsaslar üzərində qurulması üçün uşaqlara diqqət və düzgün istiqamət verilməsi əsas şərtdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin şöbə müdiri Pərvin Həsənov çıxışında qeyd edib ki, uşaq kitabxanalarının fəaliyyəti uşaqların intellektual və mənəvi inkişafında əhəmiyyətli rol oynayır. Bu kimi təşəbbüslər onların mütaliəyə marağını artırır, tərbiyə və təhsilinə müsbət təsir göstərir.

Kitabxananın direktoru Ruzi Süleymanov bildirib ki, təqdim olunan yeni nəşrlər müxtəlif yaş qruplarına uyğun olmaqla yanaşı, maraqlı və öyrədici mövzuları əhatə edir. Bu kitablar uşaqların təxəyyülünü, biliklərini və mütaliə vərdişlərini inkişaf etdirmək baxımından faydalıdır.





Tədbirin sonunda yeni kitabların nümayiş olunduğu sərgiyə baxış keçirilib.

# "Azərenerji" Naxçıvan enerji sistemində yenidənqurmaya başladı



Naxçıvan Muxtar Respublikasında ötən əsrin 50-ci illərinin sonlarından istismarda olan hava elektrik verilişi xətlərinin "Azərenerji" ASC tərəfindən sökülərək yenidən qurulmasına başlanılıb.

İlkin mərhələdə 110 kilovoltluq "Culfa", "Ordubad-1" və "Ordubad-2" hava elektrik verilişi xətləri ikidövrəli olmaqla, ümumilikdə, 68 km məsafədə yenidən çəkilir.

Qeyd edək ki, Naxçıvan ötürücü şəbəkəsində istismar müddətini çoxdan keçən xətlərdə həyata keçirilən işlər nəticəsində enerjinin ötürülmə qabiliyyətini yüksəltməklə yanaşı, enerji təchizatında baş verə biləcək nasazlıqların, qəzaların qarşısı alınacaq, dayanıqlığı və etibarlığı artırılacaq.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli "Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 235 nömrəli Fərmanının icrası olaraq "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Naxçıvan Muxtar Respublikası enerji sisteminin elektrik enerjisi generasiya və ötürücü infrastrukturların idarəedilməsi üçün cəmiyyətin tərkibində "Naxçıvan Enerji" MMC təsis edilib, həmçinin "Naxçıvan Muxtar Respublikasının Elektroenergetika Strategiyası" hazırlanıb.

Strategiyada "2025-2027-ci illər üzrə Reabilitasiya və Yenidənqurma Tədbirləri" və "Strateji Baxış İstiqamətləri" müəyyən olunub.

Bu işlər çərçivəsində 110 kilovoltluq "Culfa", "Ordubad-1" və "Ordubad-2" ötürmə xətlərinin yenidən çəkilməsi ilə yanaşı, 154/110/10 kV-luq "Babək", 110/35/10 kV-luq "Çeşməbasar" və 110/35/10 kV-luq "Naxçıvan" yarımstansiyaları müasir tələblərə uyğun olaraq tam şəkildə yenidən qurulacaq. Həmçinin Naxçıvan Regional Rəqəmsal İdarəetmə və SCADA mərkəzi, eləcə də yardımçı texniki infrastrukturlar da yaradılacaq.

# Naxçıvan şahmatının yeni qəhrəmanı – 11 yaşında ustalığa namizəd



Naxçıvan Muxtar Respublikasının şahmat tarixində daha bir əlamətdar hadisə yaşanıb. İstedadlı şahmatçı Yasin Əzimov növbəti uğura imza atıb. Beynəlxalq Şahmat Federasiyası (FIDE) tərəfindən ona CM – Candidate Master (Ustalığa namizəd) dərəcəsi verilib. Bu, Naxçıvan şahmatı üçün xüsusi əhəmiyyət daşıyan hadisədir, çünki Yasin bu titulu cəmi 11 yaşında qazanıb. Sevindirici xəbər təkcə Yasin Əzimovun ailəsi üçün deyil, ümumilikdə, Naxçıvan şahmat ictimaiyyəti üçün də böyük qürur mənbəyinə çevrilib. Biz də onunla görüşüb söhbətləşdik. Öyrəndik ki, Yasin son illər ərzində həm yerli, həm də beynəlxalq turnirlərdə bir sıra mühüm nailiyyətlər qazanıb. Hazırda onun FIDE reytinqi 2058-dir. Azərbaycan çempionatının qızıl və gümüş mükafatçısı olan şahmatçı 2023-cü ildə Albaniyanın Durres şəhərində keçirilən məktəblilər arasında şahmat üzrə Avropa çempionatında (9 yaşlı oğlanlar arasında) qitə birinciliyinin qalibi olaraq böyük uğura imza atıb. Yasin deyir ki, şahmata marağı hələ uşaqlıqdan yaranıb:

"Şahmatın sirlərini ilk olaraq atamdan öyrənmişəm. Həm dərslərimə, həm də şahmata eyni məsuliyyətlə yanaşmağa çalışıram. Yarışlar bəzən stresli keçsə də, özümə inanıram, əzm və iradə ilə çalışıram. Bu yolda ən böyük dəstəkçilərim müəllimlərim və valideynlərimdir. Onların dəstəyi mənə daim güc verir. Bu yaşda CM dərəcəsi almağım mənim üçün böyük stimul oldu. Gələcək yarışlarda da daim qalib olmağa çalışacağam".

Qeyd edək ki, bu günə qədər Naxçıvan Muxtar Respublikasında 1 qrossmeyster, 3 beynəlxalq usta, 1 FIDE ustası, 2 qadın FIDE ustası, 2 ustalığa namizəd, 1 beynəlxalq hakim və 2 FIDE hakimi rəsmi titul sahibi kimi qeydiyyata alınıb. Biz də Yasinə növbəti turnirlərdə uğurlar arzulayırıq. Qarşıda onu daha yüksək zirvələr, böyük yarışlar və yeni titullar gözləyir. Ən əsası isə istedadlı Yasinin böyük şahmat yolu hələ yeni başlayır…

**Bülbül RÖVŞƏNQIZI**

# Naxçıvanlı şahmatçılar Türkiyə liqalarında



Ankarada 2025 Türkiyə Şahmat Birinci Liqası keçirilir. Liqada 24 klub heyətində 20 ölkədən gəlmiş 300-ə yaxın şahmatçı iştirak edir. Yarışda Azərbaycandan olan zəka sahibləri də çıxış edir.

Naxçıvan Muxtar Respublikasından Toğrul Həsənzadə I Liqada çıxış edir. Digərlərinə gəlincə, Urfan Sevdımalıyev, Talıb Babayev, Sadiq Məmmədov, Pərviz Qasımov və Nəsrin Babayeva isə iyulun 20-si start götürəcək II liqada müxtəlif klubların heyətində mübarizəyə qoşulacaq.

# Dünya çempionatının qalibləri sırasında yer alan idmançı

Redaksiyamızın qonağı Rusiyanın Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində keçirilmiş kəmər güləşi üzrə dünya çempionatının qaliblərindən biri olan Namiq Əlizadədir. O, 2007-2008-ci il təvəllüdlü idmançılar arasında 65 kiloqram çəki dərəcəsində çıxış edərək Suriya və Tacikistan təmsilçilərinə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə isə Rusiya idmançısına uduzaraq dünya çempionatının gümüş medalını qazanıb. Bu onun beynəlxalq arenada ilk böyük uğurudur.

İdmana 2013-cü ildən başlayan Namiq deyir ki, sərbəst güləş üzrə ilk addımlarını Faiq İsgəndərovun rəhbərliyi altında atıb. Bu gün qazandığı uğurların təməlində həm onun, həm də atasının böyük rolu var: "Onlar olmasaydı, bu idman növündə heç bir nailiyyət əldə edə bilməzdim", – deyə gənc idmançı bildirir.



Hazırda Namiq təhsilini Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında davam etdirir. Elə burada da yeni bir idman növü – kəmər güləşi ilə tanış olub və bu sahədə də özünü sınamağa başlayıb. Qısa müddətdə bu növü mənimsəyən Namiq artıq beynəlxalq yarışlarda uğurla çıxış edir.

Kəmər güləşi üzrə məşqçisi Şahin Bəşirovun dəstəyi isə onun bu uğuruna birbaşa təsir göstərib: "Şahin müəllim bizə həm fiziki, həm də psixoloji baxımdan böyük dayaq oldu. Onun düzgün istiqamətləndirməsi sayəsində yarışlara tam hazır vəziyyətdə qatıldıq. Döşəyə çıxmazdan əvvəl verdiyi taktiki göstərişlər, rəqibin zəif tərəflərindən necə istifadə olunmasını izah etməsi bizim üçün çox dəyərli idi".

Son iştirak etdiyi beynəlxalq turnir barədə də danışan həmsöhbətim deyir: "İlk görüşüm suriyalı idmançı ilə oldu və 7:0 hesabı ilə tam üstünlüklə qalib gəldim. Daha sonra tacikistanlı rəqibimi də eyni hesabla məğlub etdim. Final görüşündə isə rus idmançısına qarşı gərgin mübarizə apardım. Təəssüf ki, fiziki çatışmazlıqlar özünü göstərdi və bu qarşılaşmada uduzdum. Lakin dünya çempionatında gümüş medal qazanmaq mənim üçün böyük stimuldur. Qarşıya məqsəd qoymuşam ki, daha çox çalışım, öz üzərimdə işləyim və növbəti yarışlarda üçrəngli bayrağımızı ən yüksək zirvədə dalğalandırım. İnşallah, növbəti yarışdan qızıl medalla Vətənə dönəcəyəm", – deyə idmançı sonda vurğuladı.

Biz də gənc idmançımıza növbəti yarışlarda yeni uğurlar arzulayırıq!

**Əhməd ƏHMƏDOV**

## *İtmişdir*

Babək rayonu, Qahab kənd sakini İsmayılova Zəhra Həsən qızının adına olan JN-342$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kolanı kəndində Əhmədova Xasa Məhəmməd qızının adına olan JN-107$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kəndində yaşamış Abdullayev Nəcəf Xəlil oğlunun adına olan JN-1021$^{A}$ və JN-1021$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Alışar kəndində yaşamış Nağıyev Abbas Həsən oğlunun adına olan JN-290$^{A}$ və JN-290$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Camaldın kənd sakini Hüseynov Oruc Əliqulu oğlunun adına olan JN-240$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Bulqan kəndi, 1-ci küçə, döngə 2, ev 10 ünvanında Mustafayev Xanlar İsrafil oğlunun adına olan 18416 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində yaşamış Məmmədov Tahar Əkbər oğlunun adına olan JN-1961$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Azadkənd sakini Baxşıyeva Zəhra Məmmədqulu qızının adına olan JN-83$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 10-cu küçə, döngə 4, ev 33-də yerləşən Şahbazov Məmməd Qəşəm oğlunun adına olan evin 3384 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Bənəniyar kəndində yaşamış Əliyev Məmməd Fəhrad oğlunun adına olan JN-93$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Yol Təmir-Tikinti İstismar Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Mersedes-Benz" 3029 markalı avtomobilin 75-AC-171 nömrəli dövlət qeydiyyat nişanı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində yerləşən İbrahimov İdris Şirin oğlunun adına olan JN-999 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kənd sakini Musayev Eldəniz Zellabdın oğlunun adına olan 108013001857 reyestr nömrəli, 1219002387 qeydiyyat nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Hüseynova Rübabə Heydər qızının adına 9 oktyabr 1998-ci il tarixdə 1392 saylı sərəmcamla təsdiq edilmiş NMR Dövlət Əmlak Komitəsi Dövlət Əmlakının inventarlaşdırılması İdarəsi tərəfindən verilmiş Naxçıvan şəhəri, Nizami küçəsi (Babək küçələrinin kəsişdiyi yerdə yerləşən) "Ülvi-91" adlı kiçik müəssisəsi mağazasına məxsus texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Payız kənd sakini Cəfərov Elman Cəfər oğlunun adına olan JN-174$^{A}$ nömrəli, 10305028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Bənəniyar kənd sakini Fərəcova Cəmilə Yusif qızının adına olan JN-520$^{A}$ nömrəli, 10600028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Məmmədova Turac Rza qızının adına olan 1159 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əliabad qəsəbəsi, döngə 9, ev 9 F ünvanında Qasımov Elgün Teymur oğlunun adına olan 23451 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kəndində yaşamış Quliyev Mirzə İsa oğluna məxsus JN-005$^{A}$ nömrəli, 10214018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 194

Nömrəyə məsul: Aidə İbrahimova, Rafiq Təhməzov, Elnurə Cəfərova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.